**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MÜBARIZ ASLAN OĞLU SÜLEYMANLI**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN KULTUROLOJİ FİKRİ

**6219.01 – Kulturologiya və onun ümumi məsələləri**

**Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi məsləhətçi:** | **Kamal Abdulla Şaiq oğlu Talıbzadə**<br>*AMEA-nın həqiqi üzvü,*<br>*filologiya elmləri doktoru, professor* |
| **Rəsmi opponentlər:** | **Mina Telman qızı Hacıyeva**<br>*fəlsəfə üzrə elmlər doktoru, professor* |
| | **Fuad Teyyub oğlu Məmmədov**<br>*tarix üzrə elmlər doktoru, professor* |
| | **İmran Bayram oğlu Cəfərzadə**<br>*fəlsəfə üzrə elmlər doktoru, professor* |
| **Aparıcı təşkilat**: | **Bakı Dövlət Universiteti**<br>**("Fəlsəfə" kafedrası")** |

Dissertasiyanın müdafiəsi "30__" "__05____" 2014-cü ildə, saat ___da AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri almaq üçün fəaliyyət göstərən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1143, Bakı, Hüseyn Cavid prospekti 115, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "__________" 2014-cü ildə göndərilmişdir.

**D.01.115 Dissertasiya Şurasının**
**elmi katibi, fəlsəfə üzrə**
**fəlsəfə doktoru:** **Sevinc Arif qızı Həsənova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hər bir xalqın mədəniyyət tarixi onun milli-mənəvi, elmi-fəlsəfi dünyasının, bədii təfəkkürünün tarixidir. Millətin tarixi, taleyi, həyat yolu, düşüncə tərzi öz ifadəsini məhz onun mədəniyyətində tapır. Bu mədəniyyətin inkişafı və səviyyəsi də bilavasitə xalqın milli varlığı ilə şərtlənir. Bu, xalq həyatı və dünyagörüşü ilə bağlı elə bir tarixdir ki, onun hər mərhələsi xalqın tarixi keçmişini, mədəniyyətini öyrənmək, ona nüfuz etmək, onu dərk etmək üçün ən mötəbər mənbə, ən zəngin xəzinədir. Eyni zamanda ayrı-ayrı mərhələləri təmsil edən klassik fikir sahiblərinin, elm və mədəniyyət xadimlərinin fəaliyyətlərinin tədqiqi, həyat və yaradıcılığının öyrənilməsi keçmişlə müasir dövr arasında fikri, mənəvi, elmi əlaqələrin yaradılması baxımından çox əhəmiyyətlidir. Bu baxımdan da, hər dövrün spesifik cəhətlərini, sosial-siyasi şəraitini, həmin dövrə xas olan milli mədəniyyətin özünəməxsusluqlarını araşdırmaq, milli irsimizi əsrlərin qaranlığından çıxarıb yenidən xalqın istifadəsinə vermək kimi çox müqəddəs, həm də məsuliyyətli bir vəzifə isə tədqiqatçıların üzərinə düşür.

Bu mənada XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikrinin və Azərbaycan Xalq Cümhuriyyəti dövründə mədəniyyət quruculuğunun bütün qaranlıq məqamlarının öyrənilməsi zəruriliyi həm tədqiqatçı alimlər, həm də dövlət rəsmiləri tərəfindən ən yüksək səviyyələrdə təqdir edilmişdir. Heç də təsadüfi deyildir ki, "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 30 yanvar tarixli Sərəncamında bu tarixi-mədəni irsin tədqiqi zəruriliyi vurğulanmışdır[1]. Habelə, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinin keçirilməsi haqqında 15 fevral 2008-ci il tarixli, Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyinin keçirilməsi haqqında 25 fevral 2013-cü il tarixli, Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında 22 noyabr 2013-cü il tarixli və Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında 21 yanvar 2014-cü il tarixli Sərəncamları da tarixi-kulturoloji irsimizin öyrənilməsinin nə qədər əhəmiyyətli olduğunu təsdiqləyən mühüm dövlət sənədləridir.

Ümumilikdə isə, bəşəriyyətin kulturoloji irsinin öyrənilməsi, mühafizəsi və təbliği məsələləri mədəni dünyanı getdikcə daha çox düşündür-

---

[1] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (I kitab. Stenoqrafik hesabatlar). Bakı: "Azərbaycan" nəşriyyatı, 1998, s.3.

məkdədir. Son illərdə bu sahədə bir sıra ciddi layihələr həyata keçirilmiş, konvensiyalar qəbul edilmişdir. Məsələn, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş Konfransı 3-21 oktyabr 2005-ci il tarixində Paris şəhərində keçirilən 33-cü sessiyasında mədəni müxtəlifliyin bəşəriyyətin fərqləndirici xüsusiyyəti olduğunu təsdiqləyərək, "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" konvensiya qəbul etmişdir. 2004-cü il noyabrın 17-19-da Avropanın siyasi, iqtisadi, mədəni həyatının, vətəndaş cəmiyyətinin nümayəndələri, dövlət rəsmiləri "Avropa üçün ruh" adlı üç günlük konfransda ciddi qərarlar qəbul etmişlər. 2006-cı ildə keçirilən II Berlin konfransında "Mədəniyyətin Avropada birlik və rifah üçün intensiv istifadəsi" təşəbbüsü irəli sürülmüşdür. Avropa Komissiyasının prezidenti X.M.Barrozu Berlində 2006-cı ildə keçirilən konfransın memorandumunda vurğulamışdır ki, "Avropa Birliyi öz inkişafında elə mərhələni qət etmişdir ki, artıq mədəniyyət faktoruna biganə qala bilməz. Birliyimizin gələcəyi üçün mədəniyyəti hərəkətverici qüvvə kimi inkişaf etdirməliyik. Avropanı birləşdirən inteqrasiya proseslərinə yalnız zahiri, maddi irəliləyiş deyil, həm də mədəni, mənəvi tərəqqini, keyfiyyət yüksəlişini təmin etmək üçün ruh, qəlb gərəkdir. Gələcək üçün Avropanın mədəni enerjisi səfərbər edilməlidir. Bunsuz sabitliyə nail olmaq qeyri-mümkündür". Həmçinin, Avropa Komissiyasının prezidenti bu konfransda 2008-ci ilin "Mədəniyyətlərarası dialoq ili" olacağını bəyan etmişdi ki, bu çərçivədə Azərbaycanda da mədəniyyətə dair bir sıra mühüm beynəlxalq tədbirlər keçirilmiş və 2008-ci ildən Bakı Prosesi başlamışdır. 2008-ci il dekabr ayının 2-3-də Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda Bakıda keçirilmiş konfransının, 2009-cu ildə Bakının İslam mədəniyyətinin paytaxtı seçilməsi münasibətilə təşkil edilmiş tədbirlərin, 2010-cu ildə Bakıda Dünya Dinləri Liderlərinin Zirvə Görüşünün, 2011-ci il aprelin 7-9-da Bakıda keçirilmiş Beynəlxalq Forumun, 10 oktyabr 2011-ci ildə Bakıda "XXI əsr: ümidlər və çağırışlar" devizi altında keçirilmiş Beynəlxalq Humanitar Forumun, 4-6 oktyabr 2012-ci ildə İkinci Bakı Beynəlxalq Humanitar Forumun, 31 oktyabr – 02 noyabr 2013-cü ildə keçirilmiş III Bakı Beynəlxalq Humanitar Forumun nəticələri, eyni zamanda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2011-ci il noyabr ayının 29-da "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə sərəncam imzalaması da mədəniyyət fenomeninin bəşəriyyətin gələcəyi üçün nə qədər bir əhəmiyyətli faktor

olduğunu təsdiqlədi. Habelə, "Muğam", "Aşıq sənəti" və "Novruz bayramı" kimi milli dəyərlərin YUNESKO tərəfindən dünyanın qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsi və Mədəniyyət və Turizm Nazirliyinin ənənəvi olaraq Milli Kulturoloqların Forumunu keçirməsi, eləcə də digər layihə və tədbirlər, elmi konfrans və simpoziumlar milli-mədəni irsin tədqiqinə və kulturoloji istiqamətli elmi araşdırmalara stimul verməkdədir.

Dünyanın tanınmış ictimai-siyasi, mədəniyyət və incəsənət xadimlərinin, nüfuzlu beynəlxalq təşkilatların, kütləvi informasiya vasitələrinin rəhbərlərinin bu Forumlarda iştirakı və Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çıxışları bəşəriyyətin təminatlı gələcəyində mədəniyyət fenomeninin nə qədər mühüm bir amil olduğunu bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Müasir kulturoloji proseslərin ümumi gedişatı da belə bir zərurəti bir daha təsdiqləyir ki, Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından iyirmi il keçməsinə baxmayaraq bu gün də yaxın milli tariximizə dair yeni-yeni tədqiqat işlərinin yazılmasına ehtiyac vardır. Bu mənada XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikrinin tədqiqi həm tarixi təcrübənin öyrənilməsi və mənimsənilməsi, həm də müasir Azərbaycanda mədəniyyət quruculuğu və dünyaya inteqrasiya prosesinin uğurla həyata keçirilməsi baxımından mühüm əhəmiyyət və aktuallıq kəsb edir.

**Mövzunun işlənmə dərəcəsi.** Yüz illərlə farslaşdırma və ruslaşdırma siyasətinə məruz qalmış azərbaycanlıların mədəniyyət tarixi, bu mədəniyyətin dünya sivilizasiyasındakı mövqeyi və bəşər mədəniyyətinə verdiyi töhfələr bu günədək yetərincə araşdırılmamışdır. Sovet dövründə mədəniyyət hadisələrinin mühüm bir qismi xalqdan ya tamamilə gizlədilmiş, ya da təhrif edilmiş formada təqdim edilmişdir. O cümlədən, elm, təhsil və mətbuatın inkişafında intibah dövrü kimi dəyərləndirilən və bir çox mədəni hadisələrlə əlamətdar olan XX əsrin əvvəlləri. Milli düşüncənin, istiqlal məfkurəsinin, milli dövlətçilik şüurunun formalaşdığı bu dövrə aid kulturoloji irsimiz uzun illər diqqətdən kənarda qalmış, çox vaxt da subyektiv və qərəzli mövqelərdən təqdim edilmiş, hətta bu irsi unutdurmağa, xalqımızın yaddaşından silməyə çalışmışlar.

Ona görə də Azərbaycanın müstəqilliyinin bərpasından sonra milli mədəniyyət tarixinin obyektiv tədqiqi və təbliği sahəsində də canlanma müşahidə olundu. Sovet rejiminin yaratdığı stereotiplərin dağıdılması bir sıra məsələlərin yenidən təhlil və tədqiq edilməsinə imkan verdi. Milli dövlətçiliyin bərpası ilə xalqın mənəviyyatının, tarixi-mədəni keçmişinin öyrənilməsinə real şərait yarandı. Milli özünüdərk prosesinin gücləndiyi, milli mədəniyyət tarixinə marağın artdığı bu illərdən etibarən Azərbaycan

mədəniyyətinin formalaşma və inkişaf tarixinin, onun qaranlıq səhifələrinin, adları uzun müddət xalqa unutdurulmuş şəxsiyyətlərin yaradıcılığının araşdırılmasının aktuallıq kəsb etməsi tədqiqatçılar qarşısında yeni vəzifələr qoydu. O cümlədən, çağdaş Azərbaycan mədəniyyəti tarixində milli-mədəni intibah dövrü hesab edilən XX əsrin əvvəllərinə dair müxtəlif aspektli tədqiqatlar aparılmağa başlanıldı.

XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri monoqrafik və sistemli şəkildə öyrənilməsə də müxtəlif elmi və publisistik əsərlərdə mövzuya dair dəyərli məlumatlar öz əksini tapmışdır. Tədqiq olunan dövrdə Azərbaycan cəmiyyəti üçün xarakterik olan yeniləşmə prosesi, milli-mədəni intibah yolundakı fəaliyyətlər, islahatçılıq meylləri, müasirləşmə təşəbbüsləri, Azərbaycan Xalq Cümhuriyyəti dövründə mədəniyyət, quruculuq problemləri və s. kulturoloji məsələlərə dair tutarlı fakt və təhlillər bir çox əsərlərdə yer almışdır. Tarixi, fəlsəfi, filoloji, sənətşünaslıq və s. aspektlərdən yazılmış həmin tədqiqat əsərlərində kulturoloji problemlərlə bağlı yeni-yeni faktlar təqdim edilmiş, mədəni irsin tədqiqi ilə əlaqəli olan bir sıra suallara cavab axtarılmışdır.

Qeyd etmək lazımdır ki, 20-ci illərə qədər yazılmış əsərlər öz obyektivliyi ilə seçilir. Eləcə də Azərbaycan mühacirət ədəbiyyatı, mətbuatı və nəşriyyatı da Azərbaycan cəmiyyətində cərəyan edən hadisələrə gerçək münasibəti, məntiqi dəlilləri və opponentlərə tutarlı cavabları ilə kulturoloji fikrə çox dəyərli bir mədəni irs qoymuşdur. Xüsusilə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Ə.Cəfəroğlu, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli, Ə.Topçubaşov, Ö.F.Nemanzadə, M.Şahtaxtlı, N.Şeyxzamanlı, A.V.Yurtsever, H.Baykara, F.Aküzüm, Ə.Qaraca kimi ziyalıların elmi və publisistik əsərlərində XX əsrin əvvəllərinin kulturoloji fikrinə dair qiymətli bilgi və təhlillər verilmişdir.

Obyektivlik və orijinallıq baxımından Y.Akçura, Z.V.Toğan, F.Köprülü, S.Aydəmir, H.Z.Ülken, N.Devlet, M.Saray, A.H.Bayat, F.Gülsevən, Y.Akpınar, A.Kafkasiyalı, Y.Gədikli, F.Gədikli, U.Özcan, H.Bal, A.Erol, B.Aslan, F.Sakal, S.Şimşir, G.Akalın kimi bir çox türkiyəli tədqiqatçıların əsərlərində də tədqiq edilən dövrə dair zəngin materiallar vardır. Mövzu ilə bağlı məlumat və təhlillərə F.Jorjon, B.Lewis, T.Svietochovski, S.Zenkovski, A.H.Şissler kimi Avropa və Amerika alimlərinin əsərlərində də rast gəlməkdəyik.

Sovet dövründə XX əsrin əvvəllərinin mədəniyyət hadisələrinə dair yazılmış tədqiqat əsərlərində Azərbaycan kulturoloji fikri birmənalı şəkildə qərəzli mövqedən təqdim edilmişdir. Bəzi tədqiqatlarda mövzuya dair

orijinal mənbələrə istinad edilsə də, sovet siyasi rejiminin tələblərinə uyğun olaraq həmin fikirlərin təhlilində aşkar təhriflərə yol verilmişdir. Məsələn, K.Talıbzadə, Ə.Mirəhmədov, Q.Mustafayev, M.Əliyev, A.Zeynalzadə və digər tədqiqatçı-alimlərimizin araşdırmalarında XX əsrin əvvəllərinin tarixi-mədəni hadisələri və ziyalılarımızın şəxsiyyəti, həyat və fəaliyyətləri, yaradıcılıqları ilə bağlı bəzi məsələlər işıqlandırılmışdır. Bu tədqiqatların bir qismində dəyərləndirmə meyarları sovet ideologiyası prinsiplərinə uyğunlaşdırılmış şəkildə olsa da, burada millətpərvər zənginlərimizin, mütərəqqi ruhlu ziyalılarımızın fəaliyyət və yaradıcılıqları əks mövqedən təhlil və şərh edilsə də, hər halda, bu əsərlər vasitəsilə həmin şəxsiyyətlər haqqında müəyyən məlumatlar əldə edilmiş, hər kəs bu yazılardan öz elmi dünyagörüşü səviyyəsində bəhrələnmişdir. Bu yazılarda nə qədər subyektiv məqamlar, yanlışlıqlar, təhriflər olsa da, məhz bu cəhdlərin sayəsində həmin mövzular tədqiqat obyekti kimi elmi fikri məşğul etmişdir.

Tarixi və milli-mədəni irsin obyektiv şəkildə öyrənilməsinə yalnız XX əsrin 80-90-cı illərindən etibarən başlanıldı. Z.Bünyadov, M.İsmayılov, Y.Mahmudov, Q.Mustafayev, C.Həsənli, Ş.Hüseynov, M.Qasımlı, N.Nəsibzadə, B.Nəcəfov, A.Balayev, X.İbrahimli, D.Seyidzadə, H.Həsənov (Əvəzoğlu), A.Paşayev, N.Yaqublu, F.Əhmədova, A.Həşimova, G.İ.İbrahimovavə digər tarixçi alimlərin əsərlərində XX əsrin əvvəllərinin ən mühüm hadisələri tədqiq edildi.

Müstəqilliyimizin bərpasından sonrakı illərin milli-mənəvi, elmi-mədəni prosesləri təbii ki, mədəniyyətşünaslığımız qarşısında da mühüm və təxirəsalınmaz vəzifələr qoydu. Mədəniyyət tariximizin son bir əsrinə (xüsusilə, yetmiş il ərzində ən çox təhriflərə məruz qalmış XX əsrin əvvəllərinə) aid elmi-mədəni prosesləri obyektiv tədqiq edərək milli irsimizi xalqa gerçək şəkildə çatdırmaq vəzifəsi bir sıra alimlərimizə həm keçmişimizə, həm də öz araşdırmalarına yenidən nəzər salmaq şansı verdi. Həmin alimlərdən bir qismi sovet dövründə “bilərəkdən” təhrif etdikləri mövzulara yenidən qayıtdılar. Onlar bu dəfə buraxılmış səhvləri etiraf etməklə və tədqiqatlarında daha obyektiv olmağa çalışmaqla ata-babalarımızın ruhu qarşısında “günahlarını” yumaq kimi müqəddəs bir işə girişdilər. Bu şansdan vaxtında bəhrələnərək əvvəlki elmi yaradıcılığını tənqidi surətdə yenidən saf-çürük edən alimlər içərisində Ə.Mirəhmədovun adı xüsusilə qeyd edilməlidir.

Sovet dövründə Azərbaycanın mədəniyyət tarixini araşdırmış, lakin bəlli səbəblər üzündən ideoloji sapıntılara yol vermiş alimlərimizin bir qismi, bir yandan özləri yanlışlıqları aradan qaldırmağa səy göstərdilər, digər yandan da tələbələrini doğru istiqamətə yönəltdilər. Vaxtilə yaza

bilmədikləri mövzuları elmi rəhbəri olduğu namizədlik və doktorluq dissertasiyaları kimi təsdiqlədilər. Məsələn, XX əsrin əvvəllərinin ədəbi-mədəni mühitinin tədqiqatçılarından N.Şəmsizadə, A.Bayramoğlu, Ş.Vəliyev, A.Əliyeva, N.Cabbarlı və digərlərinin yetişməsində rolu olan K.Talıbzadə bu alimlərdəndir. Ş.Vəliyevin "Füyuzat ədəbi məktəbi", A.Əliyevanın "Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük", "Azərbaycan" (1918-1920) qəzetində ədəbiyyat məsələləri", M.Əsədlinin "Yusif Ziya Talıbzadənin həyatı və mühiti (1877-1923)" və s. kitabların redaktoru və elmi məsləhətçisi məhz K.Talıbzadə oldu.

Mövzuya dair filoloji təhlillərə Y.Qarayev, A.Zeynalzadə, İ.Ağayev, X.Məmmədov, O.Bayramlı, K.V.Nərimanoğlu, N.Şəmsizadə, V.Quliyev, Ş.Qurbanov, T.Qurban, V.Sultanlı, A.Bayramoğlu, Ş.Vəliyev, A.Əliyeva (Kəngərli), A.Rüstəmli, N.Cabbarlı, A.Turan, T.Abdullayeva kimi ədəbiyyatşünasların əsərlərində rast gəlirik.

Habelə tədqiq olunan mövzuya dair fəlsəfi, sosioloji, politoloji kontekstdən işlənilmiş əsərlərdə də dəyərli təhlillər yer almışdır. Bunlardan Ə.Abbasov, N.Axundov, R.Bədəlov, K.Bünyadzadə, R.Əhmədli, G.Gəncalp, H.Həsənov, S.Hüseynov, Ş.Hüseynov, S.Xəlilov, Ə.Qardaşov, F.Qasımzadə, M.Mahmudov, N.Mehdi, R.Mehdiyev, A.Məmmədov, İ.Məmmədzadə, G.Sultanova, Ə.Süleymanlı, R.Ulusel, Ə.Vəliyevin araşdırmaları, xüsusilə qeyd edilməlidir.

Kulturoloji istiqamətli tədqiqatlarda XX əsrin əvvəllərinin kulturoloji fikri ayrıca tədqiq edilməsə də, ümumilikdə bu əsərlərin bir qismində mədəniyyətin nəzəriyyəsi və tarixinə, milli-mənəvi irsin mühafizəsinə dair məsələlərə yer verilmişdir. O cümlədən, B.Qurbanov, F.Məmmədov, N.Cəfərov, A.Şükürov, N.Həsənzadə, R.Aslanova, R.Məmmədova, Ə.Tağıyev, T.Əfəndiyev, S.Məmmədəliyeva, S.Dadaşova, O.Sultanov, B.Qubatoğlu, İ.Hüseynov, Ç.Abdullayev, M.Qəniyev, E.Məmmədov, N.Əfəndiyeva, M.Manafova, N.Axundova, X.Ə.Sofiyev, S.Məmmədova, S.Əliyeva, S.Şahhüseynova, A.Əlizadə, F.Məmmədova, İ.Əliyeva, A.Haqverdiyev, Y.Əliyeva, Z.Cəfərzadə, F.Hüseynova, N.Abbasov, G.Kazımova, O.Mehdizadə kimi kulturoloqların mədəniyyətin müxtəlif problemlərinə həsr edilmiş araşdırmalarında XX əsrin əvvəllərinin kulturoloji irsinə dair təhlillər də yer almışdır.

Qeyd edilən müxtəlif aspektli elmi-tədqiqat əsərlərindən başqa araşdırılan dövrün ictimai-siyasi, elmi-mədəni, ədəbi-bədii, pedaqoji və publisistik irsinin təqdim olunduğu kitablar da çap edilmişdir ki, bu nəşrlər içərisində "Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət

quruculuğu)", 2 cildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası", 2 cildlik "Parlamentin stenoqrafik hesabatları", "Azərbaycan publisistikası antologiyası", "Füyuzat (1906-1907)", habelə Türkiyədə toplu halında çap edilmiş 3 cildlik "Azərbaycan yurd bilgisi" və 17 cildlik "Türk yurdu" dərgiləri və digər dəyərli elmi mənbələr vardır. Bu nəşrlərdə XX əsrin əvvəllərinin milli-mədəni intibah hərəkatı, Azərbaycan xalqının istiqlal mübarizəsi və ictimai fikir tarixinin ən mühüm məqamları, azadlıq hərəkatının görkəmli nümayəndələrinin həyat və fəaliyyəti, Azərbaycan Xalq Cümhuriyyətini doğuran tarixi şərait, Cümhuriyyət xadimlərinin həyat və mübarizəsi, parlamentin və hökumətin fəaliyyəti və s. mövzularla yanaşı mədəniyyət quruculuğu, kulturoloji fikir, mədəni-maarif həyatı, habelə mühacirət ədəbiyyatı, mətbuatı və mədəniyyəti məsələləri yer almışdır. Lakin mövzuya dair bu qədər zəngin və çoxaspektli tədqiqatların aparılmasına baxmayaraq XX əsrin əvvəllərinin kulturoloji fikri ayrıca olaraq tədqiqat obyekti kimi araşdırılmışdır. Mövzu ilk dəfə məhz bu dissertasiyada kulturoloji aspektdən sistemli şəkildə tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatımızın əsas məqsədi XX əsrin əvvəllərinin kulturoloji irsini tədqiq etmək, bu təcrübənin mənimsənilməsi yolu ilə tarixi dərslərin nəticələrindən müasir demokratik vətəndaş cəmiyyəti quruculuğunda yararlanmaqdır.

Tarixi kulturoloji təcrübənin mənimsənilməsi və bu irsin müasir demokratik vətəndaş cəmiyyəti quruculuğuna tətbiqi yollarının aranması kimi məqsədlərə nail olmaq üçün dissertasiya işində aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuşdur: XX əsrin əvvəllərində Azərbaycan mədəni mühitindəki tərəqqinin hansı zəmində baş verdiyini və hansı tarixi qaynaqlar üzərində təşəkkül tapdığını aydınlaşdırmaq; Ziyalıların dini-kulturoloji islahatçılıq təmayüllərinin elmi əsaslarını aşkarlamaq və bu islahatçılıq təşəbbüslərinin Azərbaycandakı təzahürlərinin xarakterik xüsusiyyətlərinə diqqət yetirmək; Cəmiyyətin ümumi inkişafında ailə və qadın problemlərini önə çəkən ziyalıların mövzuya dair elmi tədqiqat əsərlərindəki əsas qənaətləri ümumiləşdirmək; XX əsrin əvvəllərində milli şüurun formalaşmasını şərtləndirən tarixi-mədəni mühitin əsas səciyyəvi cəhətlərini araşdırmaq; Milli həmrəylik ideyasını aktuallaşdıran kulturoloji fəaliyyətlərin öyrənilməsində diqqəti ziyalılarla milli ruhlu zənginlərin birgə çalışmalarına yönəltmək; Xalqın milli özünüdərketməsində ortaq dil və mədəni birlik ideyalarının praktik nəticələrini ümumiləşdirmək və bu məqsədlə kulturoloji fikirdəki əsas qənaətlərin müqayisəli təhlilini vermək; Tarixən və bu gün cəmiyyətin mədəni inkişafı baxımından aktual hesab edilən müa-

sirləşmə problemi ətrafında XX əsrin əvvəlləri üçün xarakterik olan kulturoloji baxışları müqayisəli şəkildə araşdırmaq; Uzun müddət mətbuatda müzakirələrə səbəb olmuş müasirləşmə probleminə Şərq və Qərb mədəniyyətləri kontekstindən yanaşanların ortaq və fərqli baxışlarının analitik təhlilini vermək; Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə nəticələnən yeniləşmə və maarifçilik prosesinin məntiqi yekunlarını ümumiləşdirmək; Milli dövləti ən yüksək mədəni nailiyyət, kültür yaradıcılığının ən yüksək şəkli və zirvəsi kimi təqdim edən ideoloqların arqumentlərini müasir kulturoloji meyarlarla dəyərləndirmək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini XX əsrin əvvəllərinin mədəniyyət hadisələri, ictimai-sosial tərəqqiyə xidmət edən mədəni prosesləri və kulturoloji fikrin zəngin elmi-nəzəri irsi təşkil edir. Bu məqsədlə, dissertasiyada tarixi, türkoloji, kulturoloji, fəlsəfi, sosioloji filoloji aspektdə yazılmış monoqrafik araşdırmalar, dissertasiyalar və problematik məqalələr tədqiqata cəlb edilmiş, mədəniyyətə dair rəsmi statistik məlumatlardan, proqramlardan, dövri mətbuat və arxiv sənədlərindən istifadə edilmişdir. XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikrini ümumbəşəri və milli-mədəni proseslər fonunda araşdırmaq, ictimai tərəqqi sahəsində baş verən hadisələri, kulturoloji təmayülləri, tənəzzül və inkişaf meyllərini tarixi şərait kontekstində öyrənmək tədqiqatın əsas predmetini təşkil edir.

**Dissertasiyanın nəzəri-metodoloji əsasları və mənbəşünaslıq bazası.** Dissertasiya işinin nəzəri və metodoloji əsasını tarixilik, varislik, məntiqilik, sistemlilik və müqayisəli təhlil prinsipləri təşkil edir. Çoxsaylı və çoxaspektli qaynaqlar əsasında yazılmış tədqiqatda konkret tarixi fakt və təhlillərə istinad edilmişdir. Tarixi hadisə və proseslərin işıqlandırılmasında xronoloji ardıcıllığın saxlanılmasına xüsusi diqqət yetirilmiş, bütün mənbələrə elmi-tənqidi yanaşma metodundan istifadə edilmişdir. Tədqiqatda müasir kulturoloji fikrin elmi-nəzəri qənaətləri və təcrübəsindən, mövzu ilə bağlı tədqiqat müəlliflərinin fikir və mülahizələrindən, analoji araşdırmaların təcrübə və nəticələrindən istifadə edilmişdir. Habelə dissertasiyanın mənbəşünaslıq bazasını arxiv sənədləri, dövri mətbuat, çoxcildlik toplular və ensiklopedik nəşrlər təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın əsas elmi yeniliyi problemin ilk dəfə sistemli, kompleks şəkildə araşdırılmasından ibarətdir. Belə ki, XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikrinin araşdırılması yönündə müxtəlif aspektlərdə tədqiqatlar aparılsa da, bu mövzu indiyədək kulturoloji kontekstində ciddi, sistemli və monoqrafik şəkildə araşdırılmamışdır.

Tədqiq olunan problem məhz bu dissertasiyada ayrıca tədqiqat obyektinə çevrilmiş, mövzu ilə bağlılığı olan müxtəlif tədqiqatların nəticələrinə ilk dəfə olaraq burada hərtərəfli elmi-tənqidi münasibət bildirilmişdir. Tədqiqat işinin elmi yeniliyi əsasən aşağıdakı müddəalarda öz əksini tapır:

1. Bu vaxta qədər kulturoloji indeksdə yazılmış dissertasiyalardan fərqli olaraq, bu tədqiqat işində mədəniyyət məfhumunun mahiyyəti və məzmunu haqqında geniş təhlillər aparılmış, bu sahədəki terminoloji anlayışlara dair elmi şərhlər verilmişdir. Kültür, mədəniyyət və sivilizasiya terminlərinin etimoloji mənşəyi və habelə kulturologiya və mədəniyyətşünaslıqla bağlı elmi fikrin qənaətləri ümumiləşdirilmişdir.

2. İlk dəfə olaraq, XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətində müşahidə edilən canlanmanın və milli-mədəni intibahın kulturoloji qaynaqları sistemli şəkildə araşdırılmış, əsasən XIX əsrin II yarısından başlanan yeniləşmə prosesinin tarixi-kulturoloji təhlili verilmişdir.

3. Dini islahatçılıq təmayülləri və ziyalıların bu sahədəki fəaliyyətləri dövri mətbuat materiallarının, arxiv sənədlərinin və bu sahədə yazılmış tədqiqat əsərlərinin təhlili, öyrənilməsi və istifadə edilməsi nəticəsində elmi dövriyyəyə bir sıra yeni faktlar daxil edilmişdir. İslam dünyasının mədəni tərəqqisinə yönəlmiş dini-islahatçılıq təşəbbüslərinin müsəlman ölkələrindəki ideya rəhbərləri haqqında geniş məlumat verilmiş, Azərbaycan ziyalılarının bu sahədəki fəaliyyətləri müqayisəli təhlil edilmiş və əldə edilmiş nəticələr sonrakı tarixi proseslər fonunda dəyərləndirilmişdir.

4. Cəmiyyətin inkişafında ailə və qadın problemlərinin aktuallaşması, maarifləndirici tədbirlərin görülməsi istiqamətində ziyalıların fəaliyyəti tədqiq edilmiş və bu sahədə yazılmış ilk tədqiqatların kulturoloji təhlili verilmişdir. İslahatçılıq təşəbbüslərinin əsasən qərbyönlü ziyalılardan gəlməsinin səbəbləri açıqlanmış və islami dəyərlərlə qərb demokratik təcrübəsinin sintezi yolundakı səylərin Azərbaycan cəmiyyəti üçün nəticələrinin elmi-tənqidi təhlili verilmişdir.

5. Azərbaycan cəmiyyətində formalaşmaqda olan milli şüur və özünüdərketmə prosesləri Rusiya, İran və Türkiyədə baş vermiş inqilabi hərəkatlar və I Dünya müharibəsi fonunda izlənilmiş, milli-ictimai şüurun formalaşmasını şərtləndirən tarixi şərait və mədəni mühitin əsas səciyyəvi cəhətləri nəzərdən keçirilmişdir.

6. Xalqın mili özünüdərki və mədəni yüksəlişi uğrunda Azərbaycan milli burjuaziyasının tarixi rolu kulturoloji meyarlarla araşdırılmış, milli həmrəylik ideyasını aktuallaşdıran amillər içərisində ziyalılarla milli ruhlu zənginlərin birgə fəaliyyətləri tədqiq edilmişdir.

7. Milli şüurun təşəkkülü prosesində ortaq dil amilinin roluna dair Azərbaycan ziyalılarının baxışları müqayisəli təhlil edilmiş, özünüdərketmə prosesində ortaq dil və mədəni birlik ideyalarının praktik nəticələri ümumiləşdirilmişdir.

8. İlk dəfə olaraq mədəniyyətdə müasirləşmə problemi tarixi-kulturoloji kontekstdə araşdırılmışdır. Azərbaycan milli dövlətçiliyinin dövlət rəmzlərində də öz ifadəsini tapmış bu problemə dair elmi yanaşmaların fərqli və ortaq cəhətləri təhlil edilmişdir.

9. Cəmiyyətin mədəni inkişafı baxımından bütün dövrlər üçün aktual hesab edilən müasirləşmə problemi ətrafında XX əsrin əvvəlləri üçün xarakterik olan kulturoloji baxışlar sistemli şəkildə təqdim edilmiş, uzun müddət mətbuatda müzakirələrə səbəb olmuş bu problemə Şərq və Qərb mədəniyyətləri kontekstindən yanaşanların konseptual ideyaları müasir Azərbaycanın mədəniyyət quruculuğu mövqeyindən dəyərləndirilmişdir.

10. İlk dəfə olaraq mədəniyyət quruculuğu məsələləri milli istiqlal kontekstində sistemli şəkildə araşdırılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə nəticələnən yeniləşmə və maarifçilik prosesinin məntiqi nəticələrinə elmi ümumiləşdirmə verilmiş və cümhuriyyət dövründə mədəniyyət quruculuğunun əsas istiqamətləri kulturoloji aspektdən öyrənilmişdir.

11. Azərbaycanın milli-demokratik dövlətçilik təcrübəsi baxımından mədəniyyət amilinin əhəmiyyətinə diqqət yetirilmiş, milli dövləti ən yüksək mədəni nailiyyət, kültür yaradıcılığının ən yüksək şəkli və zirvəsi kimi şərh edən Azərbaycan ziyalılarının, milli dövlət ideoloqlarının kulturoloji fikri öyrənilmiş və mədəniyyət fenomeninin milli dövlətçiliyin təməl prinsipi olmasına dair nəzəri baxışlar sistemləşdirilərək, bu milli-mədəni irsin müasir cəmiyyət həyatına tətbiqi məsələləri elmi-tənqidi meyarlarla dəyərləndirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Araşdırma zamanı əldə olunan ümumiləşdirilmiş elmi qənaət və nəticələr Azərbaycan Respublikasının müasir mədəniyyət quruculuğu prosesində milli-mədəni sahədə qazanılmış tarixi təcrübənin tətbiqi baxımından elmi-nəzəri əhəmiyyət kəsb edir. Dissertasiya işi təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma üsulları baxımından sonrakı dövrün tədqiqatları üçün elmi-nəzəri və praktik əhəmiyyət daşıyır. Tədqiqat işi təkcə kulturoloqlar üçün deyil, həmçinin mədəniyyətin müxtəlif problemlərini araşdıran tədqiqatçılar üçün də faydalı bir elmi mənbədir. Araşdırma zamanı əldə edilmiş elmi nəticələrdən "Kulturologiya", "Mədəniyyətin nəzəriyyəsi və tarixi", "Tətbiqi kulturologiya" və s. fənlərin, habelə mədəniyyətlə bağlı kursların tədrisində, humanitar

profilli ali və orta ixtisas məktəblərinin müvafiq dərs proqramlarında istifadə etmək olar. Dissertasiyanın elmi qənaətlərindən, qloballaşma və mədəni inteqrasiya prosesinə milli-mənəvi baxımdan itkisiz qatılmaq, bu prosesin mənfi təzahürlərinin aradan qaldırılmasında tarixi təcrübədən bəhrələnmək məqsədi ilə də yararlanmaq olar və kulturoloji irsin mütərəqqi təcrübəsi müasir mədəniyyət layihələrinin tətbiqi prosesində də nəzərə alına bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın nəticələri Azərbaycanda və xarici ölkələrdə dərc olunmuş çoxsaylı məqalələrdə öz əksini tapmışdır. Habelə beynəlxalq elmi konfrans və simpoziumlarda dissertantın mövzu üzərindəki axtarışlarını əks etdirən məruzələri dinlənilmişdir. Eyni zamanda tədqiqat mövzusu dissertantın dörd monoqrafiyasında işıqlandırılmışdır. Respublika səviyyəli bir necə elmi konfransda mədəniyyətşünaslıq bölməsinin işinə rəhbərlik etmiş dissertant kulturoloji problemlərlə bağlı televiziyadakı çıxışlarında və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Milli mədəniyyət və müasir mədəniyyət siyasəti" layihəsinin üzvü kimi respublikanın müxtəlif elmi-mədəni tədbirlərindəki məruzələrində mövzuya dair geniş maarifçilik işi aparmışdır.

**Tədqiqatın strukturu.** Tədqiqatın quruluşu və həcmi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət heyətinin qərarı ilə təsdiq edilmiş "Dissertasiyaların tərtibi qaydaları"na uyğun olaraq hazırlanmışdır. Dissertasiya işi giriş, beş fəsil, on bir yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Milli-mədəni intibahın kulturoloji qaynaqları"** başlıqlı birinci fəslin ilk yarımfəslində kulturoloji irsin tədqiqi problemlərinə aydınlıq gətirilir. **"Kulturoloji irsin tədqiqi problemləri"** adlı bu yarımfəsildə mədəniyyətə dair terminoloji anlayışlarla bağlı kulturoloq alimlərin baxışlarındakı ortaq və fərqli cəhətlər təhlil edilir. Belə bir məqam, xüsusilə vurğulanır ki, kulturoloji irsin tədqiqi, bu sahədə dünya təcrübəsinin mənimsənilməsi, elmi metodların milli tariximizin öyrənilməsinə tətbiqi və mövcud mədəniyyət nəzəriyyələrinin müqayisəli təhlili kulturologiyanın elm sahəsi kimi formalaşmasının şərtlərindəndir. Mədəniyyət tarixi və nəzəriyyəsi ilə bağlı dünya elminin qənaətləri bizim üçün də keçərli və faydalıdır. Öyrənilməsi bütün xalqlar üçün zəruri olan bu elmi irsi biz də

mənimsəməliyik. Lakin bununla yanaşı milli-kulturoloji irs də mənimsəməli, öz əsərləri ilə kulturoloji fikri zənginləşdirmiş ziyalıların yaradıcılıqları tədqiq və təbliğ edilməlidir. Çünki, milli-mədəni birliyin və istiqlal ideyalarının carçısı olan mütəfəkkirlərin milli tariximizdəki yerlərinin müəyyənləşdirilməsi, onların irsinin öyrənilməsi, varisliyin fikirdə, sözdə və əməldə təsdiqi dövlətçiliyimizin ən zəruri şərtlərindəndir. Kulturoloji irsimizin layiqincə təbliği üçün bəşəriyyətin mədəni irsində, türk düşüncə tarixində, o cümlədən Azərbaycan kulturoloji fikrində həyat və yaradıcılıqları yeni nəslə örnək olan şəxsiyyətlərin yaradıcılığı daha dərindən araşdırılmalı, onların kültür və mədəniyyət anlayışlarına münasibətləri öyrənilməlidir.

Vurğulanır ki, mədəniyyətin mənşəyinə dair nəzəri konsepsiyaların müxtəlifliyi və bu sahədə nəzəri fikir birliyinin olmaması səbəblərindən biri, tamamilə subyektiv qiymətləndirmələrdən asılı olan, mürəkkəb və çoxcəhətli təhlil və şərhlərlə izah edilən mədəniyyət fenomeninin elmi tədqiqinin obyektiv çətinliyidir. Mədəniyyətə aid əsərlərdə rast gəlinən bəzi etimoloji anlayışların fərqli şərhlərinə gəldikdə isə, bütövlükdə, ictimai elmin heç bir anlayışı "mədəniyyət" anlayışı qədər müxtəlif mühakimələrə, mülahizələrə, təriflərə səbəb olmamışdır. Xüsusilə də, ayrı-ayrı elmlər çərçivəsində mədəniyyət haqqında bir-birindən fərqli, çox müxtəlif təsəvvürlər mövcuddur. Hətta bu gün mədəniyyətə verilən heç bir müfəssəl tərif belə onun məzmununu tam aça bilmir. Kulturologiya, fəlsəfə, sosiologiya, tarix, etnoqrafiya, psixologiya və digər ictimai elmlərdə mədəniyyətin çox zaman bir-birindən olduqca fərqli təriflərinə təsadüf edilir. Bu vaxta qədər aparılmış araşdırmaları nəzərdən keçirdikdən sonra, belə güman etmək olardı ki, mədəniyyət haqqında hər şey artıq deyilmişdir və onun bu tərifləri ilə razılaşmaq olar. Lakin mütəxəssislərin çoxu, mədəniyyətə mövcud münasibəti qənaətbəxş saymırlar. Məhz bu səbəbdəndir ki, mədəniyyət anlayışı müasir dövrdə də kulturoloji fikrin ən aktual mövzularından biri olaraq qalmaqdadır.

Mədəniyyətlə bağlı yüzlərlə tərifi özündə ehtiva edən müasir kulturoloji ədəbiyyatda "mədəniyyət" anlayışı adətən iki mənada – "geniş" və "məhdud" mənada işlədilir. Geniş mənada mədəniyyət, cəmiyyətdə qəbul edilən və təsdiqini tapan bütün həyat formalarını – adətləri, normaları, institutları, o cümlədən dövləti və iqtisadiyyatı, bir sözlə, hər şeyi ifadə edir. Məhdud mənada isə mədəniyyətin hüdudları mənəvi yaradıcılıq sahələrinin hüdudları ilə, incəsənət, mənəviyyat, intellektual fəaliyyətlə çərçivələnir.

Azərbaycan mütəfəkkirlərinin əsərlərində çox vaxt mədəniyyət anlayışı ən geniş mənada işlədilərək, bəşəri və xüsusilə də, milli xarakterli hadisə kimi dəyərləndirilir. Bir tərəfdən mədəniyyətə milliyyət dərəcəsində əhə-

miyyət verilirsə, yalnız bu kulturoloji dəyərlər sayəsində milli dövlət quruculuğunun mümkünlüyü qəbul edilirsə, digər tərəfdən də belə bir tezis irəli sürülür ki, "milli istiqlala malik olmayan bir millət hürriyyət və harsını hifz edəməz"[2]. Milli diriliyi bütünlüklə mədəniyyətə bağlayan M.Ə.Rəsulzadə yazırdı: "Məncə, mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur"[3]. Ə.Ağaoğlu mədəniyyəti daha geniş, bütün tərifləri içinə alan və bu kəlməyə ən geniş mənanı verən "həyat tərzi" kimi qəbul edərək "Üç mədəniyyət" əsərində yazır: "Mədəniyyət demək – həyat tərzi deməkdir"[4].

İlk yarımfəsildə öz əsərləri ilə dünya kulturoloji fikrini zənginləşdirmiş alimlərin qənaətlərinə yer verilmiş və mədəniyyət tarixçilərinin "mədəniyyət" kəlməsinin mahiyyətinə dair baxışları işıqlandırılmışdır. O cümlədən, kulturoloji terminlərlə bağlı E.B.Taylor, İ.Kant, O.Şpenqler, A.Toynbi, M.Veber, F.Koneçnı, L.Qumilyov, L.Meçnikov kimi mütəfəkkirlərin baxışları müqayisəli təhlil edilmişdir.

"**Azərbaycan cəmiyyətindəki yeniləşmə prosesinin tarixi-kulturoloji təhlili"** adlanan II yarımfəsildə XIX əsrdən başlayan modernləşmə prosesinin xarakterik xüsusiyyətləri araşdırılır. Maarifçi ziyalıların teatrın, milli mətbuatın, modern tipli məktəblərin yaradılması ilə nəticələnən fəaliyyətlərinin kulturoloji təhlili verilir. Azərbaycan cəmiyyətinin XX əsrin əvvəllərindəki milli-mədəni tərəqqisi bir əsrlik mədəniyyət tarixi kontekstində dəyərləndirilir. Göstərilir ki, XX əsrin əvvəllərində Azərbaycanda reallaşmış milli-mədəni intibah faktı birdənbirə baş vermiş, hazır şəkildə alınmış, mənimsənilmiş bir mədəniyyət hadisəsi deyildi. Bu intibahın zəminində XIX əsr boyunca tədricən formalaşmış bir yeniləşmə hərəkatı dururdu. Milli-mədəni intibahın mütərəqqi fikirli şəxsiyyətlərinin, qabaqcıl ziyalılarının yetişməsində də ilk növbədə əvvəlki yüzilliyin oyanış və yeniləşmə proseslərinin təsiri şəksizdir. Həmin zamana qədər Azərbaycanda A.A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı ilə başlayan maarifçilik və millət davasının M.F.Axundzadə və H.B.Zərdabi ilə davam etdirilən böyük bir "mədəni hərəkat" mərhələsi, daha sonra Ə.Hüseynzadə, Ə.Topçubaşov, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, N.B.Yusifbəyli və digər ziyalılarla təmsil olunan qısa

---

[2] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, s.61.
[3] Rəsulzadə M.Ə. Əsərləri. II cild (Toplayanı, ərəb əlifbasından latın əlifbasına çevirəni, ön sözün müəllifi Şirməmməd Hüseynov). Bakı: Şirvannəşr, 2001, s.462.
[4] Ağaoğlu A. Üç medeniyet. İstanbul: Milli Egitim Basımevi, 1972, s.3.

bir “siyasi hərəkat” dövrü vardır. Bu mənada mədəni intibah dövrünün ümumi kulturoloji fikrinin və ictimai-siyasi görüşlərinin ideya mənbəyini milli və bəşəri dəyərlərin vəhdəti təşkil edirdi. Belə bir kulturoloji fikrin ideya zəminində Şərqin əsrlər boyu qazandığı fikri və mədəni nailiyyətləri dayanırdı. O dövrün ziyalıları dünya elminin keçdiyi inkişaf yolunu izləyərək, Avropa demokratik fikrindən, qabaqcıl ideyalarından faydalanmış, onları yeni tarixi şəraitə uyğun olaraq daha da inkişaf etdirərək böyük məharətlə Azərbaycan mühitinə tətbiq etmişdilər. Bu ziyalılar öz yaradıcılıqlarını ancaq milli ənənələrlə, milli zəminlə məhdudlaşdırmamış, bu çərçivəni cəsarətlə qırmağa çalışaraq müasir dünya mədəniyyəti səviyyəsinə yüksəlmək yollarını axtarmışdılar. Ona görə də dünyagörüşləri zəngin milli ədəbi-bədii, fəlsəfi-kulturoloji fikrin zəminində, ümumşərq mədəniyyəti dəyərləri və ümumbəşəri sivilizasiya nailiyyətlər kontekstində təşəkkül tapmışdır. Milli-mənəvi dəyərlərlə sintezinə çalışdıqları mədəni dünya təcrübəsinin mənimsənilməsi isə onlara Azərbaycan cəmiyyətini yeni dövrün ümumi tələbləri səviyyəsinə yüksəltmək üçün geniş imkanlar açmışdır.

XVIII əsrin sonları və XIX əsrin əvvəllərindən etibarən mədəniyyət dünyası tarixində ən böyük rol oynayan fikir cərəyanları XX əsrin astanasında daha qüvvətli xarakter daşımış, Avropa və Amerika hüdudlarını aşaraq Yaxın və Uzaq Şərq ölkələrini də öz təsir dairəsinə almışdı. Milliyyət, cümhuriyyət, demokratiya və müasirlik kimi dörd mühüm əsasa istinad edən bu fikir cərəyanları artıq Azərbaycanda da cövlan etməkdə idi[5]. Milli Azərbaycan hərəkatı ideoloji mənşəyi etibarilə Şərqdəki milli qurtuluş ideyaları ilə Qərbdəki kültür və demokratiya cərəyanlarını öz növündə birləşdirmiş bir hərəkat halına gəlirdi[6].

Çarizmin qərəzli siyasəti nəticəsində Azərbaycan türkləri “Əkinçi”dən sonra uzun illər milli mətbuat intizarında qalmışdılar. “Kəşkül”lə mətbuat boşluğu qismən aradan qalxsa da, onun da bağlanmasından sonra, ziyalılar bir də “Şərqi-Rus”la (1903-1905) istəklərinə çatdılar. Arada qalan müddət ərzində milli ziyalıların əksəriyyəti qeyri-ana dilli (rus, tatar, osmanlı türkcəsi) mətbuat orqanlarında çıxış etməyə məcbur oldular. Bu qəzet və dərgilərdə Azərbaycan ziyalılarından əsasən aşağıdakıların imzalarına rast gəlinirdi: M.Şahtaxtlı, Ə.Cavanşir, F.Köçərli, E.Sultanov, T.Bayraməlibəyov, S.Mehmandarov, N.Nərimanov, S.Ağamalıoğlu və Ə.Ağayev. Bu ziyalıla-

---

[5] Resulzade M.E. Bugünün ilhamı // “Odlu yurd”, Sayı: 4, Mayıs 1929, s.118-121.
[6] Resulzade M.E. Milli Azerbaycan Hareketinin Karakteri // “Azerbaycan Yurt Bilgisi”, Yıl: 3, 28 Mayıs: 1934, Sayı: 29, s.163.

rın "Kavkaz", "Novoye obozreniye" (Tiflis), "Kaspi" (Bakı), "Həblülü-mətin" (Kəlküttə), "Əxtər" (İstanbul), "Ədəb", "Nasiri", "Sürəyya" (Təbriz, Tehran), xüsusən "Tərcüman" (Bağçasaray, türkcə və rusca) qəzetlərində çıxışlarını xüsusilə qeyd etmək lazımdır. Mərkəzi rus mətbuatında isə ("Sovremennik", "Rossiya", "Oteçestvenniye zapiski", "Sankt-Peterburq-skiye vedomosti"...) daha çox M.C.Topçubaşovun və Mirzə Kazımbəyin imzalarına rast gəlinirdi. Bu dövrdə Rusiyanın bir çox qəzetlərinə nisbətən, "Kavkaz" və "Kaspi" qəzetləri Şərq mövzularına daha artıq diqqət yetirdiyi üçün M.Şahtaxtinski, H.Zərdabi, S.Mehmandarov, E.Sultanov, T.Bayramə-libəyov, Ə.Ağaoğlu kimi Azərbaycan ziyalıları bu qəzetlərdə yayımladıq-ları yazıları vasitəsilə xalqı maarifləndirməyə çalışırdılar. Belə bir tarixi gedişat nəticəsində XIX əsrin əvvəlində "Zakirlə doğan "vətən" anlamı, bu yüzilin sonlarına doğru təkamül edərək "millət" anlamı ilə birləşmişdi[7].

XIX əsrdə dramaturgiya, teatr, mətbuat, yeni tipli məktəblərin təşəkkü-lü ilə daha da geniş vüsət alan maarifçilik və mədəniləşmə prosesləri təbii ki, bir-biri ilə bağlılıq və qarşılıqlı təsirlənmələr şəraitində gedirdi. Mədə-niyyət sahələrinin belə bir qarşılıqlı təsirlənmələr şəraitində inkişaf etməsi, ziyalıları ehtiyac hiss olunan digər mədəni fəaliyyətlərə də sövq edirdi. Digər tərəfdən, artıq XIX əsrin 70-80-ci illərində cədidçilik bir ictimai-si-yasi hərəkat kimi formalaşmışdı. XIX yüzilliyin sonlarında pedaqoji fəaliy-yətə xüsusi önəm verən Azərbaycan ziyalıları xalqın və zənginlərin yardı-mına güvənərək digərləri ilə müqayisədə milli məktəblər deyilə biləcək "üsuli-cədid"lərin sayını artırırdılar. Bu məktəblərdə ruslaşdırma yox idi. Rus dili də, oxudulan dərslərdən yalnız biri idi. Şamaxıda Seyid Əzim Şirvaninin vaxtilə açmış olduğu üsuli-cədid məktəbini dostu Mirzə Rza davam etdirirdi. Qubada Molla İbrahim Xəlil, Salyanda Molla Əbülhəsən, Bakıda Mirzə İsmayıl Qütsi yeni üsul məktəblərin qurucuları idilər.

Forma etibarilə ənənəyə bağlı olmaqla yanaşı, bu ziyalıların mahiyyət-cə yenilikçi təşəbbüs və fəaliyyətləri təhsil, sənət, ədəbiyyat sahəsində irəliləyişlərə stimul verdi. Bu dövrdə görkəmli ziyalıların təşkil etdikləri ədəbi-mədəni məclislər içərisində M.Ş.Vazehin "Divani-hikmət" (Tiflis), X.Natəvanın "Məclisi-üns" (Şuşa), M.M.Nəvvabın "Məclisi-xamuşan" (Şuşa), M.Sidqinin "Əncüməni-şüəra" (Ordubad), S.Ə.Şirvaninin "Beytüs-Səfa" (Şamaxı) Azərbaycan cəmiyyətinin mədəni inkişafına böyük töhfələr vermişdir. Şamaxıda Mahmud ağanın himayədarlıq etdiyi musiqi məclisləri

---

[7] Mirəhmədov Ə. Rus jurnalistikasına ilk addımlar / "Mədəniyyət dünyası", XIV buraxılış. Bakı: ADMİU, 2007, s.45.

isə elm və sənətin inkişafına təsir göstərməklə yanaşı, Azərbaycanın mədəni əlaqələrində də mühüm rol oynamışdır.

XIX əsrdə Azərbaycanın ictimai və sosial-mədəni həyatına təzəlik gətirən, yeni dövrün əsasını qoyan və bu mərhələnin ən görkəmli siması olan şəxs M.F.Axundzadə olmuşdur. Mənəvi mədəniyyətimizin bütün sahələrində "yeni dövrün" banisi hesab edilən M.F.Axundzadə Azərbaycan xalqının milli mənlik və istiqlal şüurunun tarixində mühüm yer tutur. İstər M.F.Axundzadə, istərsə də maarifçilik məktəbinin H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, S.S.Axundov, Ü.Hacıbəyov, Z.Marağalı, Ə.Talıbov, F.Köçərli, A.Şaiq, İ.Musabəyov, S.Qənizadə, R.Əfəndiyev və digər sonrakı nümayəndələrinin çatmaq istədikləri yalnız bir əsas məqsədləri vardı: ideal cəmiyyət yaratmaq, xalqın ictimai və inqilabi tərəqqisinə nail olmaq.

Yüz illik yeniləşmə prosesi ərzində mütərəqqi fikirli ziyalılar cəmiyyətin ümumi tərəqqisi naminə mədəniyyətin bütün sahələrinin inkişafı qayğısına qalmışlar. Elmi-mədəni, ədəbi-bədii yaradıcılıq mühitinin formalaşması üçün məktəb və mətbuatdan başlayaraq xeyriyyə və maarif təşkilatlarına, teatr və musiqiyə qədər incəsənətin fərqli sahələrinin inkişafına yönəlmiş həmin fəaliyyətlərin bəhrəsi artıq XX əsrin əvvəllərində göz qabağında idi. Milli-mədəni intibah prosesini yönəltmiş Azərbaycan ziyalıları məhz belə bir mühitin yetirməsi idilər. Qədim tarixə, zəngin varislik ənənəsinə malik Azərbaycan mədəniyyəti ilə müasir Avropa mədəniyyətinin yüksək nailiyyətlərinin çulğaşdığı yeni mədəni mühitin yetirməsi olan bu ziyalılar ölkənin və xalqın gələcək taleyində mühüm rol oynadılar. Azərbaycan mədəniyyətinin son yüzillik boyu əldə etdiyi nailiyyətlər, qabaqcıl ideyalar həmin ziyalıların ictimai-siyasi görüşlərinin və kulturoloji baxışlarının təşəkkülündə mühüm rol oynadı. Hətta deyə bilərik ki, XX əsrin əvvəllərinin milli-mədəni intibahına öz töhfələrini vermiş bu şəxsiyyətlər Azərbaycan xalqının əsrlər boyu yaratdığı böyük və zəngin mədəniyyətinin məntiqi sonucu, qanunauyğun bəhrəsi idilər. Lakin onlar, keçmiş yolları təkrar etmədilər, mədəni irsdən yaradıcı şəkildə istifadə etməklə dövrün tələbindən doğan zəruri, müasir, demokratik və həm də orijinal fikirlərin bayraqdarı və carçısı oldular. Bununla da təkcə Azərbaycanın deyil, bütün Yaxın Şərq xalqlarının mədəniyyət tarixində örnək bir cəmiyyətin qurucuları səviyyəsinə yüksəldilər.

Dissertasiyanın "**Dini-kulturoloji islahatçılıq təmayülləri**" adlı ikinci fəslində Azərbaycan ziyalılarının bu istiqamətdəki fəaliyyətləri araşdırılır. Bu fəslin **"İslam dünyasının mədəni tərəqqisinə yönəlmiş dini-**

**islahatçılıq təşəbbüslərinin Azərbaycanda təzahürləri"** başlıqlı birinci yarımfəslində modernist islamçıların təbliğ etdikləri ideyaların mahiyyəti açıqlanır. Qeyd olunur ki, bu dövrdə cərəyan edən islahatçılıq təmayüllərindən biri özünü, ənənəvi dindar əhalinin həyat tərzinə yönəldilmiş tənqidlərdə büruzə vermiş və məzhəb ayrılıqları tənqidlərin birinci hədəfi halına gəlmişdi. Cədidçilərin məzhəb münaqişələrini ortadan qaldırmaq istəyi və düşüncəsi, həqiqətdə din birliyini gerçəkləşdirmə yolunda bir iddiadan çox, yüz illərdən bəri fars mədəniyyətinə bağlı olan Azərbaycan cəmiyyətini bu kimlikdən təmizləmə düşüncəsidir. Bu kimliyin təmizlənəcəyi və modern dəyərlərin mənimsəniləcəyi halda cəmiyyət problemlərinin həll ediləcəyi düşüncəsi burada üstünlük təşkil edirdi. Eyni zamanda XX əsrin ilk illərindən etibarən Azərbaycan cəmiyyətində dini təmayüllərin fərqli səciyyə daşıması ilə yanaşı milli mənsubiyyət axtarışları prosesi də paralel gedirdi. Bu zaman islamçılığa paralel olaraq türkçülüyün də inkişafı, azərbaycanlı ziyalılarını öz mənliklərini araşdırmağa yönəltmişdi.

İslahatçı ziyalıların tarixi sünni-şiə ayrılığının ortadan qaldırılması yönündəki düşüncələri, öz məqsədləri baxımından keçərli bir təmələ dayanırdı. Məzhəb ziddiyyətləri Azərbaycan türklərini beş yüz ildən daha uzun bir vaxt ərzində Osmanlı türklərindən, Krım, Volqa və Orta Asiya türklərindən ayırmışdı. Bu səbəbdən yeniləşmə səylərinin ilk növbədə islami qurum və ənənələr üzərində cəmləşdirilməsi təsadüfi deyildi. Şiə kimliyinin yenidən gözdən keçirilməsi yeni bir ictimai kimliyin formalaşdırılması məqsədi daşıyırdı.

İslahatçılıq hərəkatı Azərbaycan cəmiyyətində yeni münaqişələrin qaynağı olmuşdur. Bu hərəkatın Rusiya müsəlmanlarını bir araya gətirərək daha yüksək səviyyədə bir birlik yaratmağa xidmət etdiyi söylənilə bilməz. Hərəkatın panislamist olaraq tanıdılan bəzi liderləri belə, dindən bir jarqon kimi istifadə edərək gerçəkdə onun hüdudlarını göstərmişlər. Dinin modernist şərhinin inkişafı onların məqsədlərinə xidmət etmişdir. Ona görə də Rusiya müsəlmanları arasında birləşdirici olmaqdan çox, ayırıcı olmalarında təəccüb doğuracaq heç nə yoxdur. Bu islahatçı ziyalılar din duyğusunun milliyyət duyğusundan daha güclü olduğu bir cəmiyyətdə, yeni bir ictimai kimliyin formalaşdırılmasına girişmişdilər. Onların bu işə başladıqları vaxt təzyiqlə qarşılaşmalarının da başlıca səbəbi məhz bu idi.

Din amili əksər islahatçılar tərəfindən formalaşdırılması nəzərdə tutulan cəmiyyətin ünsürləri arasında bəlkə də ən zəif halqanı təşkil edirdi. Başqa sözlə, sosializm, rus populizmi, liberal demokratizm, Avropa tipli milliyyətçilik və Gənc Türklərin düşüncəsi kimi islamdan kənar müxtəlif

amillər, onların zehinlərində yeni kimliyin qurucu ünsürləri olaraq eklektik bir tərzdə bir araya gəlmişdi. Beləliklə, milliyyətçi şüurun hər şeydən əvvəl dünyəvi məsələlərin qabardıldığı bir çərçivədə inkişaf etdiyi qeyd edilməlidir. Milliyyətçi liderlər arasında bəzən dini terminologiyaya müraciət etmə ehtiyacı ortaya çıxmışsa da, burada gerçəkdə dinin deyil, planlaşdırılmış milli iradənin rasional təməldə təşəkkülü müzakirə mövzusudur. İslahatçılar islam anlayışında ənənəçi deyil, modern, reformçu və dünyəvi bir mövqe nümayiş etdirirdilər. Bu mənada islahatçı ziyalıların bir qismi ictimai problemlərin həlli yolunda, ilk növbədə Qərb mədəniyyətinə işarə etməsi başqa alternativlərin qarşısını əngəlləyəcək bir mahiyyətdə idi.

XX əsrin əvvəllərində cəmiyyətin tərəqqisi naminə Azərbaycan ziyalılarının göstərdikləri islahatçılıq təşəbbüslərinin tarixi-müqayisəli təhlilini vermək üçün bu yarımfəsildə modernist islamçıların (və ya islam reformatorlarının) baxışları, onların ortaq və fərqli cəhətləri barədə ümumi məlumat verilir. Çünki islahatçılıq təmayülləri yalnız Azərbaycan cəmiyyətinə xas olan bir tərəqqi cəhdləri deyildi. Bunun tarixi daha əvvəllərə gedib çıxır və demək olar ki, bütünlüklə islam dünyasını əhatə edirdi. Bu mənada, Şeyx Cəmaləddin Əfqani, Misirdə Məhəmməd Əbduh, Fərid Vəcdi, Musa Cərullah, İqbal modernist islamçıların baxışlarının mahiyyəti açıqlanır. Ş.C.Əfqaninin M.F.Axundov, H.Zərdabi, R.Axundov, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə kimi Azərbaycan ziyalıları ilə əlaqələrindən bəhs edilir.

M.Şahtaxtlı, M.Mahmudbəyov, Ə.Haqverdiyev kimi bir qisim ziyalılar istisna olunmaqla, XX əsrin əvvəllərində fəaliyyət göstərmiş demək olar ki, bütün maarifçi və demokratik fikirli ziyalılar islam dininin cəmiyyət həyatındakı müsbət rolunu təqdir etmişlər. Onlar yalnız mövhumatı, cəhaləti, "köhnəpərəst" islam ruhaniliyini tənqid etməklə bərabər, elm və mədəniyyət dini kimi təqdim etdikləri islamı modernizə etməyə meyl göstərmişlər. İslahatçılıq təmayülləri ilə yanaşı onlar islamı millətin əlaməti hesab etmiş, milli-mədəni hərəkatı həm də milli-mədəni müsəlman hərəkatı hesab etmişlər. Bu ziyalılar "islamı əslinə qaytarmağa", yəni onu müsəlmanların ictimai-siyasi həyatının ümumi nəzəriyyəsi, mənəvi sanksiyası və cəmiyyətdə təsir göstərən ideologiya formalarının çıxış nöqtəsi etməyə çalışırdılar. Bunlardan bəziləri ("köhnələr", "qədimçilər") islamı ənənəvi formada, bəziləri isə ("yenilər", "yenilikçilər") onu "dövrün tələbinə uyğun şəkildə", müasir formada "əslinə qaytarmaq", "bərpa etmək" istəyirdilər. Eyni zamanda XIX-XX əsrlərdə müsəlman cəmiyyətinin ümumi rifahı və mədəni tərəqqisi naminə ziyalılarla eyni mövqedən çıxış edən din

xadimləri, çox ləyaqətli ruhanilər və ilahiyyatçı alimlər də olmuşdur. Bunlar içərisində Mir Cəfər Mir Məmməd Kərim, Axund Mirzə Əbu Turab, Şeyx Əhməd Səlyani kimi onlarla ruhani xadimlərimiz olmuşdur.

II fəslin ikinci yarımfəsli **"Cəmiyyətin mədəni inkişafında gender münasibətləri amili bu sahədə aparılan ilk tədqiqatlar kontekstində"** adlanır. Bu yarımfəsildə müsəlman cəmiyyətinin sosial-mədəni inkişafında əhəmiyyətli faktor olan ailə və qadın problemlərinin həlli yolunda ziyalıların əsas fəaliyyət istiqamətləri öyrənilir. Gender münasibətlərinin mahiyyəti bu sahədə aparılan ilk tədqiqatlar kontekstində şərh edilir. Bildirilir ki, Azərbaycanda yüzillik yeniləşmə prosesi ərzində mütərəqqi fikirli ziyalılar cəmiyyətin ümumi tərəqqisi naminə mədəniyyətin bütün sahələrinin inkişafı qayğısına qalmışlar. Elmi-mədəni, ədəbi-bədii yaradıcılıq mühitinin formalaşması üçün məktəb və mətbuatdan başlayaraq teatr və musiqiyə qədər incəsənətin fərqli sahələrinin inkişafına yönəlmiş həmin fəaliyyətlərin bəhrəsi artıq XX əsrin əvvəllərində göz qabağında idi. Yeniləşmə prosesi ərzində M.F.Axundovdan üzü bəri əksər ziyalılar ictimai-mədəni həyatın inkişafı məsələlərinə, o cümlədən ailə problemlərinə də diqqət ayırmış və cəmiyyətin tərəqqisində qadınların mədəni həyatda iştirakı faktoruna laqeyd qalmamışlar. Lakin bilavasitə islam dini xadimlərinin bu məsələlərin həllinə qatılması və ilahiyyat üzrə yüksək elmi biliklər sahibi olan ziyalıların bu yöndəki fəaliyyətlərinin dini islahatçılıq istiqaməti alması mədəni həyatın canlanmasına təkan vermiş oldu. İslahatçı ziyalıların bir qisminin əsərlərində ailə və qadın mövzusuna yeni və fərqli bir baxış tərzi ilə yanaşılmışdır. Cəmiyyət həyatının yeniləşməsində və milli-mədəni tərəqqi prosesində islahatçı ziyalılar təşəbbüs və fəallıqları ilə seçilmişlər. Həm də onlar bu fəaliyyətlərində ictimai fikri, xalqın mövcud inam və inanclarını nəzərə alır, milli-mənəvi dəyərlərə ehtiramla yanaşırdılar. Hətta mədəni inkişafa əngəl olan dini-mənəvi stereotiplərlə mübarizədə belə ehtiyatlı olmağa çalışırdılar.

İslahatçı ziyalıların bir qisminin ictimai problemləri həll etmənin ilk yolu olaraq Qərb mədəniyyətinə işarə etməsi başqa alternativlərin qarşısını əngəlləyəcək bir mahiyyətdə olmuşdur. Lakin müsəlman qadınının Avropa həyat standartlarına uyğunlaşdırılacağı təqdirdə cəmiyyət problemlərinin də həll oluna biləcəyi düşüncəsinin həqiqətə uyğun olmadığı ortadadır. Çünki Qərbdə qadın hərəkatı, ucuz işçi qüvvəsini təmin edən kapitalist mexanizmlər içində qadının işgüzar həyata fəal olaraq qatılmasının bir nəticəsi olaraq ortaya çıxmışdı və getdikcə qadın haqları sahəsində də müəyyən inkişafa nail olunmuşdu. Bunun əksinə olaraq isə, belə bir sənaye və ictimai təşkilatlanmadan məhrum olan Şərq cəmiyyətində qadının statusunda

bənzər dəyişikliklər olmadan qadın və ailənin islahatlara cəlb edilməsi zərurəti irəli sürülmüşdür. Şərqdə qadın haqlarının ictimai bir təşəbbüsün nəticəsi olaraq inkişaf etməməsinin və yuxarıdan diktə edilən islahatların cəmiyyətə asanlıqla tətbiq oluna bilməməsinin başlıca qüsurları da məhz bu səbəblərdə axtarılmalıdır.

Bütün bu mübahisəli məqamların, ola bilsin ki, tədqiqatçılar tərəfindən hələ gələcəkdə də birmənalı şəkildə qiymətləndirilməyəcək tarixi-mədəni təmayüllərin Azərbaycan xalqının milli-mənəvi oyanışına və tərəqqisinə hansı dərəcədə və nə kimi effektiv təsir etməsindən asılı olmayaraq, XX əsri yeni, orijinal fikirlərlə qarşılayan, islam dininin cəmiyyətin inkişafını şərtləndirən, humanizm və tolerantlıq təlqin edən müqəddəs ruhi-mənəvi dəyərlər sistemi olduğunu elmi dəlillərlə, tarixi-müqayisəli üsullarla araşdıran islahatçı ziyalıların dini-kulturoloji yaradıcılıqları, o cümlədən, sırf qadın probleminə aid kitab və çoxsaylı məqalələri Quranın təhriflərdən və qərəzli münasibətlərdən mühafizəsinə, həm də ümumiyyətlə, müsəlman cəmiyyətinin mədəni tərəqqisinə xidmət etmişdir. Bu əsərlərin xalqın mövhumat və xurafatdan qurtulub islamın əsl mahiyyətini əks etdirən inanclara yiyələnməsində də mühüm əhəmiyyəti olmuşdur.

"**Milli şüur və özünüdərketmənin kulturoloji amilləri**"nin təhlil edildiyi üçüncü fəsildə XIX əsrin sonlarından etibarən aktuallaşan milli dərketmə məsələlərinin iqtisadi, siyasi və mədəni aspektlərinə diqqət yetirilir. Bu fəslin ilk yarımfəslində **"Milli-ictimai şüurun formalaşmasını şərtləndirən tarixi-mədəni mühit"**in xarakteristikası verilir. Göstərilir ki, bu dövrdə Azərbaycan türklərinin özünüdərketmə, maariflənmə, həmrəylik meyllərinə istiqamət verən ziyalılar müxtəlif konsepsiyalarla çıxış etsələr də, ümumi gedişat milli bir məcraya yönəlirdi. Türk dilində maariflənmə işinə daha çox diqqət yetirilməsi, milli məktəblərin yaradılması istiqamətində uğurlu addımların atılması, mətbuat sahəsində bu vaxtadək görünməmiş bir canlanmanın müşahidə edilməsi, türk dilində dramaturgiya, teatr, opera, operettanın inkişafı və digər mədəni-maarif fəaliyyətləri Azərbaycan türklərinin milli özünüdərkinin mühüm amilləri idi.

Milli düşüncəni və adət-ənənələri inkişaf etdirmək, ümumi türk xalqını vahid bir sistem şəklində dərk etmək, türk xalqları arasında dil və kültür birliyini inkişaf etdirmək mahiyyətli ideyalarının cəmiyyətdə özünə sosial baza tapması artıq türkçülük meyllərinin yaranmasının göstəricisi idi. Bu meyl heç də xalqın islam dininə olan etiqadını zəiflətmir, əslində tarixən bir-birinə daha sıx bağlı olmuş türk xalqlarının min illik inanclarına yeni bir rəng qataraq imanlarını daha da kamilləşdirirdi. Doğrudur, siyasi

türkçülüyün baniləri azərbaycanlıları müstəqil və əlahiddə bir millət kimi deyil, "vahid türk millət"inin tərkib hissəsi kimi qəbul edirdilər. Lakin Ə.Hüseynzadə və Ə.Ağaoğlu tərəfindən irəli sürülmüş ümumtürk ideyaları türklərin milli mənlik şüurunun ümummüsəlman kontekstindən aralanması prosesini sürətləndirərək, bununla da, gələcəkdə azərbaycanlıların milli özünüdərkinin formalaşması üçün zəmin yaratmış oldu.

Ümmətçilik düşüncəsindən milli kimliyə keçidin şərtlərinə baxıldığı zaman bir məqam diqqətdən qaçırılmamalıdır ki, milli özünüdərk prosesinin start götürməsinə kimi ziyalıların mədəni tərəqqiyə yönəlmiş fəaliyyətlərini dini mənsubiyyətə istinad edərək aparmalarının əsas səbəblərindən biri yerli müsəlmanlar arasında dominant olan türklərdən fərqli olaraq türk olmayan əhalinin də nəzərə alınması idi ki, həmrəylik və birlik baxımından bu amilin əhəmiyyəti, heç şübhəsiz, danılmazdır. Əslində isə türkçülük bir milli düşüncə olaraq tarixən türklərin həmrəyliyinin əsas amili olmuşdur. Tədqiq edilən dövrdə də türkçülük bir neçə istiqamətdə təzahür edirdi ki, A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı, Mirzə Kazımbəy, M.F.Axundov, Q.Zakir, S.Ə.Şirvani, Ş.C.Əfqani, H.Zərdabi ilə başladılan bu yolu İ.Qaspıralı, Ə.Hüseynzadə, Z.Göyalp, Y.Akçura, M.Ə.Rəsulzadə, N.Yusifbəyov, Ə.Topçubaşov, F.Xoyski, M.B.Məmmədzadə kimi bir çox milli əqidə sahibləri uğurla davam etdirdilər.

**"Milli həmrəylik ideyasını aktuallaşdıran kulturoloji fəaliyyətlər"** başlıqlı ikinci yarımfəsildə milli burjuaziyanın tərəqqipərvər nümayəndələri ilə demokratik ruhlu ziyalıların həmrəyliyinin şərtləri və məqsədləri təhlil edilir. Qeyd edilir ki, XIX əsrin ikinci yarısında olduğu kimi XX əsrin əvvəllərində də Azərbaycanda maariflənmənin və mədəni intibahın kulturoloji amilləri sırasında teatr və mətbuat ön yerləri tuturdu. H.B.Zərdabi, M.F.Axundovun dramaturji irsi əsasında ilk milli teatrımızı və onun mətbuat nəzəriyyəsi əsasında ilk milli demokratik mətbuatımızı yaratdıqdan sonra, onların açdıqları bu cığırın yolçuları sonralar yeni-yeni mətbuat orqanları və dram əsərləri vasitəsilə xalqın xidmətində durdular. Ü.Hacıbəyovun opera və operettaları isə Azərbaycan teatrının musiqi istiqamətini müəyyənləşdirdi. Bunun əhəmiyyətli tərəflərindən bir də onunla izah edilə bilər ki, əgər ədəbi-bədii əsərlərlə yalnız savadlı təbəqəni maarifləndirmək mümkün idisə, artıq teatr və musiqi ilə əhalinin bütün təbəqələrinin şüuruna və zövqünə təsir etmək imkanı yaranmışdı.

Milli maarifləndirmə, ana dilli təhsil, teatr, mətbuat, mədəni-maarif və xeyriyyə cəmiyyətləri XX əsrin milli-mədəni intibahını şərtləndirən mühüm kulturoloji amillərə çevrildi ki, bu prosesdə ziyalılarla milli

burjuaziyanın həmrəyliyi faktı xüsusilə qeyd edilməlidir. Yaranmaqda olan milli burjuaziya azərbaycanlılar üçün istər iqtisadi, istər mənəvi, istərsə də maarifçilik maraqlarının qorunmasında yeganə ümid yeri idi. Bu səbəbdən rus və erməni bolşeviklərinin uzun illik səylərinə baxmayaraq, əksər azərbaycanlılarda milli və dini təəssübkeşlik sinfi həmrəylikdən üstün idi. Ziyalılarla milli burjuaziyanın həmrəyliyinə nümunə kimi, Ə.Topçubaşov, Ş.Əsədullayev, Ə.Ağaoğlu, A.Ziyadxanov, Q.Zülqədərov və digər ziyalıların daxil olduqları "Cənubi Qafqaz müsəlman əhalisinin səlahiyyətli nümayəndələri" adlı təşkilatı göstərə bilərik ki, tədqiqatçılar bunu açıq fəaliyyət göstərən ilk milli siyasi qurum adlandırırlar[8].

Azərbaycanın demokratik fikirli bütün ziyalıları, o cümlədən, H.Zərdabi, S.M.Qənizadə, H.Mahmudbəyov, M.Mahmudbəyov, Ə.B.Hüsynzadə, Ə.Ağaoğlu, Ə.B.Topçubaşov, F.Köçərli, N.Nərimanov, M.Ə.Rəsulzadə, R.Əfəndiyev, Ü.Hacıbəyov, S.S.Axundov, C.Məmmədquluzadə, M.Şahtaxtılı, M.T.Sidqi, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, Ö.F.Nemanzadə, Ə.Nəzmi, E.Sultanov və başqaları xalq maarifi sahəsində böyük ictimai-siyasi və elmi əhəmiyyət kəsb edən, xalq üçün çox səmərə verən faydalı işlər görmüşlər. Bunlar içərisində məktəb şəbəkələrinin genişləndirilməsi, yeni məktəblərin açılması, elmin demokratikləşdirilməsi, ana dilində təlim, dərs kitabları və tədris proqramlarının tərtib edilməsi məsələləri ön planda dururdu[9]. Ziyalılar tədris və təlim işi aparmaqla yanaşı, ciddi çətinliklərə, məhrumiyyətlərə baxmayaraq, qiraətxanalar, kitabxanalar, xeyriyyə cəmiyyətləri yaradır, həvəskar gəncləri, tələbələri öz ətrafında toplayaraq teatr tamaşaları verir, mühazirələr təşkil edir, cəhaləti, geriliyi, ətaləti tənqid atəşinə tutan bədii əsərlər yaradır, milli ədəbi dilin, ədəbiyyatın, mətbuatın, teatrın inkişafı uğrunda yorulmadan mübarizə aparırdılar. Xeyriyyə cəmiyyətləri xeyriyyəçilik fəaliyyətləri ilə yanaşı maarifçiliyə də xüsusi qayğı ilə yanaşırdılar. "Nicat", "Nəşr-maarif", "Səfa" kimi mədəni-maarif cəmiyyətlərinin başında duran Ü.Hacıbəyov, Z.Hacıbəyov, H.Q.Sarabski, H.Ərəblinski, M.A.Əliyev, C.Zeynalov, S.Ruhulla kimi görkəmli teatr və musiqi xadimləri xalqın maarifləndirilməsi yolunda çalışır, müxtəlif konsert və teatr tamaşaları, siyasi və elmi məruzələr keçirirdilər.

**III fəslin "Milli özünüdərketmənin ortaq dil və kulturoloji aspektləri"** adlı üçüncü yarımfəslində milli özünüdərketmə prosesində dil amili,

[8] Əzizoğlu H. Türklüyümüz. Bakı: AzAtaM, 2007, s.185.
[9] Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, s.30.

xüsusilə önə çəkilir. Ortaq türk dili ideyası uğrunda fəaliyyətlərdən bəhs edilir. XX əsrin əvvəlləri üçün xarakterik olan dil mübahisələrinin elmi-tənqidi təhlili verilir. Türk kültür birliyi ideyasının tarixi xronologiyası izlənilir, müasir dövrdə bu ideyanın perspektivlərinə dair proqnozlar verilir. Göstərilir ki, dünyanın bir çox elm, mədəniyyət və siyasət xadimləri dil və kültür birliyini milli şüurun və özünüdərkin əsas amili hesab etmişlər. Həyatlarını Azərbaycanın mədəni tərəqqisinə və milli istiqlal ideyaları uğrunda mübarizəyə həsr etmiş ziyalılar da xalqın bu ideallar ətrafında birləşməsinin, bu ideałların məfkurə halına gətirilməsinin, milli şəxsiyyətin formalaşması üçün mənəvi-ruhi birliyin vacib və mühüm şərt olduğunu bildirmişlər. Bu mənada onlar, dil və kültür birliyi anlayışı altında bir xalqın ruhi və mənəvi dəyərlərinin məcmusunu ifadə etmişlər. Bu düşüncəyə görə milli varlığın, milli birliyin, milli kültürün ən davamlı daşıyıcısı dildir. Dil deyərkən, ilk növbədə nəinki tərkib hissəsi olduğu kültür və mədəniyyət, həm də məhz məxsus olduğu millət göz önünə gəlir. Milliyyətin təyinində ən mühüm amil olması səbəbindəndir ki, dillə millət məfhumları çox vaxt eyni anlamda qavranılır. Bu prinsip, demək olar ki, bütün sosioloq, kulturoloq və digər fikir adamları tərəfindən mənimsənilmişdir.

Millətlərinin gələcəyini milli-mədəni birliyə bağlayan dünya mütəfəkkirləri, o cümlədən tədqiq edilən dövrdə Azərbaycan ziyalılarının böyük bir qismi milli birliyin formalaşmasını milli mədəniyyətin mühafizəsi və inkişafında görürdülər. Bu mənada mədəniyyətin mühüm amillərinin, ilk növbədə dilin milli tərəqqidə, milli özünüdərkdə oynadığı mühüm rola dair M.F.Axundov, H.B.Zərdabi, Ş.C.Əfqani, İ.Qaspıralı, Ə.Ağayev, Ə.Hüseynzadə kimi bir çox türk böyükləri də əsərlər yazmış, dəyərli fikirlər söyləmişlər. Bunların içərisində M.K.Atatürk, M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə kimi "milli dövlət ideoloqları" bir az da irəli gedərək "dil-kültür-millət" məfhumlarını eyni mövqedən dəyərləndirmişlər. Belə ki, dili kültürün ifadə vasitəsi, milli birliyin ən sağlam dayağı kimi dəyərləndirən Atatürkə görə milli dövlətin də əsasını dil və kültür təşkil edir: "Türkiyə Cümhuriyyətinin təməli kültürdür"[10]. M.Ə.Rəsulzadəyə görə də "dil bir nöqteyi-nəzərdən həmən millət deməkdir"[11]. O, millətin tarixi formalaşma prosesində də dilin rolunu önə çəkir, "milliyyət"lə "millət"i mahiyyətcə

[10] Qocatürk U. Atatürk. Bakı: Elm, 1991, s.87.
[11] Rəsulzadə M.Ə. Əsərləri. II cild. Bakı: Şirvannəşr, 2001, s.476-479.

fərqləndirir[12] və millətin yalnız "ictimai hafizə" vəzifəsini görən orqanın təşəkkülü ilə vücuda gəldiyini yazır. Milliyyət etnik bir anlam ikən, millət siyasi bir anlamdır. Milliyyət müəyyən şərtlər və hadisələr nəticəsində vücuda gəlmiş statik bir varlıqdır; millət isə bu statik varlığın şüurlaşan dinamik (fəal) bir şəklidir. Statik bir keyfiyyət ərz edən milliyyət baxımından vətən coğrafi bir anlamdır. Halbuki şüur və iradəyə malik olan millət baxımından vətən, siyasi bir məna ifadə edir". Milliyyət dövlət olmaq əzmi göstərdiyi və bunda israr etdiyi zaman ancaq millət ola bilər[13].

Millətin və dövlətin təşəkkülündə kültürün roluna birincilik verən M.B.Məhəmmədzadə bu fikirdədir ki, "milli dövlət kültür yaradıcılığının ən yüksək şəklidir". O, milli dövləti kültür yaradıcılığının zirvəsi hesab etməklə yanaşı, həm də belə bir tezis irəli sürür ki, "milli istiqlala malik olmayan bir millət hürriyyət və kültürünü hifz edə bilməz". Bəşər mədəniyyətini milli kültürlər məcmusu hesab edən M.B.Məhəmmədzadəyə görə millətlər müstəqil olmadıqca milli mədəniyyətlərini mühafizə edə bilməzlər və buna görə də bəşər mədəniyyəti qüsurlu olar[14].

Azərbaycan ziyalılarının dil probleminə münasibətində S.C.Əfqani və İ.Qaspıralının təsiri açıqca hiss olunmaqdadır. Türk kültür birliyi uğrunda çalışmış fikir adamları "türklər kimdir", "türklərin dünyada yeri", "türkləri nə gözləyir" və s. bu kimi taleyüklü problemlərə baş vurublar. M.Ə.Rəsulzadə kimi azərbaycanlı ziyalıların əqidəsi də həmişə türk kültür birliyi amalına xidmət etmişdir[15].

Birmənalı şəkildə deyilməlidir ki, XX əsrin əvvəllərində dil mübahisələri dilimizin adı üstündə deyil, ortaq ədəbi dil uğrunda olmuşdur. Bu, bir inkar olunmaz faktdır ki, ədəbi dilimiz uğrunda gedən mübarizədə mövcud fikir ayrılıqlarından, fərqli siyasi mövqelərindən asılı olmayaraq bütün ziyalılarımız dilimizi şərtsiz-şübhəsiz türk dili adlandırmışlar[16].

Azərbaycan mütəfəkkirlərinin kulturoloji irsində dil mövzusu millət və

---

[12] Resulzade M.E. Millet olmak azmı // "Azerbaycan", Ankara, 1 ağustos 1952, Sayı: 5, s.2-3.

[13] Resulzade M.E. Milli Tesanud. Ankara: Kardeş matbaası, 1978, s.19-20; 24-25.

[14] Mehmetzade M.B. Mili Azerbaycan hareketi. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1991, s.54-55.

[15] Resulzade M.E. Türk kültür birliği // "Azerbaycan", Ankara, Yıl: 2, Eylül, 1953, Sayı: 6 (18), s.1-3.

[16] Azərbaycan publisistikası antologiyası. Bakı: Şəqr-Qərb, 2007, s.13-14; Rəsulzadə M.Ə. Milli dirilik // "Dirilik" jurnalı, 1914-cü il, № 3, № 5; Nemanzadə Ö.F. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1992, s.451.

mədəniyyət fenomenləri kontekstində araşdırılmış, dilin tarixi-mədəni və milli-ideoloji aspektlərdən tədqiqi problemlərinə xüsusi diqqət yetirilmişdir. Onların qənaətincə, milliyyət xaricində səadət olmadığı kimi, dilsiz də milliyyət yoxdur. Mədəniyyət sinfi olmadığı kimi, dil də sinfi deyil, millidir. Türk dil birliyini müdafiə və təbliğ etmiş ziyalılar Azərbaycan dilinin tarixinin də yalnız türk dilinin tarixi ilə birgə öyrənilməsini elmi saymışlar. "Milli həyat, milli varlıq, milli mənlik və milli ruhun əsasını, baş mənbəyini təşkil edən milli kültürdür" qənaəti istiqlalçı və milli şüur sahibi olan ziyalıların mövzuya dair yazılarının ana xəttini təşkil edir.

Dördüncü fəsildə **"Mədəniyyətdə müasirləşmə problemi"** araşdırılır. Cəmiyyətin inkişafı üçün müasirləşmək zərurətini dərk etmiş ziyalıların bu yöndəki fəaliyyətləri öyrənilir. İlk yarımfəsildə **"Müasirləşmə probleminin Şərq-Qərb mədəniyyətləri kontekstində tarixi-müqayisəli təhlili"**nə yer verilir. Deyilir ki, mədəniyyət tarixinin inkişaf mərhələləri dünyanın müxtəlif ölkə və xalqlarını əhatə etmiş, zaman-zaman bu mədəniyyətin konturları çox fərqli coğrafi hüdudları aşmış, geniş məkan çərçivələrini kəsib keçmişdir. Tarixən sivilizasiyaların çox müxtəlif yerdəyişmələri olmuş, bəzən şərqdən qərbə, bəzənsə qərbdən şərqə doğru yayılmışdır. Burada mübahisə doğuracaq məqamlar həmişə olmuşdur və yəqin ki, bundan sonra da olacaqdır.

Yalnız Azərbaycan ziyalılarını deyil, bütün Şərq ölkələrində elmi-mədəni fikri məşğul edən bu problemin daha əvvəlki dövrlərdə özünü büruzə verən tarixi səbəbləri var idi. Belə ki, cəmiyyətlərin istər ictimai-siyasi, hərbi-iqtisadi, istərsə də mənəvi həyatındakı geriləmələrin islahatlar yolu ilə aradan qaldırılmasına yönəldilmiş təşəbbüslər Şərq ölkələrində hələ XIX əsrdən intişar tapmışdı. Qərbin texnogen mədəniyyət sahələrində Şərqdən üstünlüyünün etirafından başlayan, elmi-texniki və hərbi-iqtisadi sahələrdəki böhranın səbəbləri ətrafındakı mübahisə və çarpışmalardan doğan, ən nəhayət dünyanın tarazlığı pozulmuş iki qütbü arasındakı müvazinəti saxlamaq uğrundakı səy və cəhdlərin nəticəsi kimi meydana çıxan modernləşmə, müasirləşmə, avropalaşma hərəkatları uzun zaman Şərq cəmiyyətlərini bürümüş, ictimai həyata ciddi nüfuz etmişdir. İctimai düşüncəyə çeşidli adlar və vasitələrlə, həm də müxtəlif səviyyələrdə təsir göstərən bu nəzəriyyələrin ideya sahibləri heç şübhəsiz ayrı-ayrı şəxsiyyətlər, mütəfəkkirlər olmuşdur. Nəinki fərqli coğrafi ərazilərdə, siyasi quruluşları müxtəlif olan dövlətlərdə, hətta eyni ölkə hüdudlarında belə müasir sivilizasiya ilə ayaqlaşmanın çarəsi barədə ziddiyyətli və mübahisəli fikirlər hökm sürürdü. Misal üçün, müasirləşmə haqqında, çarizm

məngənəsində yaşayan türk mütəfəkkirlərindən Mirzə Fətəli Axundov bir cür, İsmayıl bəy Qaspıralı başqa cür düşünürdü. Türklüyün digər böyük bir nümayəndəsi – həyatını islam birliyi uğrunda mübarizəyə həsr etmiş, müsəlman şərqinin böhranlardan qurtulmasının yalnız islahatlar yolu ilə mümkünlüyü ideyasını ömrünün sonunadək təbliğ etmiş Şeyx Cəmaləddin Əfqani isə fərqli əqidə sahibi idi. Elm, təhsil, məktəb, təlim və tərbiyənin ictimai mahiyyətinə eyni mövqedən yanaşan bu şəxsiyyətlərin hər birinin avropalaşma məfhumuna reaksiyaları müxtəlif idi. Hətta zaman, məkan, mühit şərtlərinin eyni olduğu halda belə, ziyalılar arasındakı fikir fərqliliyi özünü göstərmişdir. Milli mənafe baxımından eyni məqsəd, amal uğrunda mücadilə etmiş Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və Məhəmməd Əmin Rəsulzadə kimi zəka sahiblərinin belə avropalaşma zehniyyətinə münasibətlərindəki ziddiyyətli məqamlar görünməkdədir.

XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanda modern Qərb dəyərlərinin və qurumlarının tətbiqi yönündəki fəaliyyətlər mədəniyyət tarixinə "yeniləşmə", "modernləşmə", "qərbliləşmə" kimi müxtəlif adlarla düşmüşdür. Bu istiqamətdə məlum olan dəyişmələr əsasən XX əsrdə baş vermişdir. Ancaq Türkiyədə bu proses XIX əsrin əvvəllərindən başladılmışdı. Azərbaycandakı modernləşmə təşəbbüsləri Türkiyədəkindən fərqli xüsusiyyətlərə malik olmuşdur. İlk növbədə o dövrdə Azərbaycan Çar Rusiyasının müstəmləkəsi halında idi. Ölkə Rusiyadan təyin edilən səlahiyyətlilər tərəfindən idarə edilirdi. Buna görə də Qafqazda "cədidçilik" adı ilə başlayan modernləşmə hərəkatları Çar İmperiyasından haqq tələbləri ilə başlamış və getdikcə imperiya sistemindən ayrılma istiqamətində inkişaf etmişdir. Türkiyədən fərqli olaraq Qafqazda qərbliləşmə fəaliyyətlərinə cəmiyyəti də ortaq etmək zərurəti yaranmışdır. Bu səbəblə ictimai islahatlar üstünlük təşkil etmişdir. Azərbaycandakı modernləşmə prosesi "dövlət səviyyəsində" deyil, qabaqcıl cəmiyyət qurumları, təbəqələri, mütərəqqi fikirli ziyalılar tərəfindən gerçəkləşdirilmişdir. Buna görə də, Türkiyədəki qərbliləşmə prosesinin fasiləsizliyinin əksinə olaraq, Azərbaycandakı qərbliləşmə prosesi ciddi nəticələr verməmiş, bəzi kəsintilərə məruz qalmış, müxtəlif əngəllərlə qarşılaşmışdır. Türkiyədən fərqli olaraq Azərbaycanın XX əsrdəki modernləşməsi daxili deyil, daha çox kənar təsirlərlə istiqamətlənən bir mahiyyət kəsb etmişdir. Bir tərəfdən müasirləşmə ehtiyacının "yuxarılar" tərəfindən deyil, "aşağılar"dan başladılması, digər tərəfdən də prosesin təzyiqlər və məhdudiyyətlər şəraitində davam etdirilməsi Azərbaycan mədəni həyatına Türkiyədən fərqli təsirlər göstərmişdir.

Tədqiqatçılar adətən Türkiyə və Azərbaycan ziyalılarını müasirləşməyə münasibətləri baxımından şərti olaraq üç qrupa ayırırlar. Bu fikir adamlarının hamısı öncə müasirləşmək ehtiyacını duyanlardır. Birincilərə mühafizəkarlar (geriçilər) aiddir. Kənardan ruhi-mənəvi dəyərlərimizə yabançı olan heç bir mədəniyyət idxalını qəbul etməyən bu mövqe sahibləri, Qərb mədəniyyətinin mənimsənilməsi ilə din-imanın, milli-mənəvi dəyərlərin əldən gedəcəyini iddia edirdilər. İkincilərə ifrat qərbçilər daxildir ki, bu mövqe sahibləri qərb mədəniyyətinin istinasız olaraq, bütün yönləri ilə və ya sistem şəklində qəbul olunmasını təbliğ edirdilər. Üçüncü mövqe tərəfdarlarının fikrincə isə, elmi-texniki tərəqqi nailiyyətləri, mədəni yeniliklər mənimsənilməli, ruhi-mənəvi dəyərlərimiz mühafizə edilməlidir.

Dördüncü fəslin ikinci yarımfəsilində **"Milli mədəniyyətin inkişafını şərtləndirən nəzəri-praktiki irsin aktual problemləri"**nə elmi münasibət bildirilir. Azərbaycan cəmiyyətinin dünyaya balanslı mədəni inteqrasiyası üçün müasirləşmə problemi ilə bağlı tarixi təcrübənin mənimsənilməsi zəruriliyi əsaslandırılır. Bildirilir ki, XX əsrin əvvəllərində qızğın müzakirə obyektinə çevrilmiş müasirləşmə probleminin həlli yollarına dair fərqli yanaşmalar mövcud Avropaya doğru meyllərin təşkilatçısı və ilhamvericisi, şübhəsiz ki, yeni ruhlu, yeni düşüncəli milli-yaradıcı ziyalı zümrəsi idi. Bu ziyalılar bir tərəfdən mədəniyyətin milli müstəqilliyi, yeni tarixi mərhələdəki adət-ənənələrlə davam və inkişafı uğrunda mübarizə aparır, bu mədəniyyəti mənəvi aşınmadan qoruyur, ona qarşı düşmən hücumlarını dəf edir, digər tərəfdən isə həmin mədəniyyətin dünya, xüsusilə Qərb mədəniyyəti ilə fəal təmasının yaranmasına böyük səy göstərirdilər[17].

Azərbaycanda "Əkinçi" qəzetindəki yazılarla başlanan və dövri mətbuatda sonralar da davam etdirilən "Elmi-əbdan", yoxsa "Elmi-ədyan" mübahisələrində Avropa mədəniyyətinə münasibətdə üç mövqe özünü göstərirdi: bunlardan birincisi tərəqqi yolunun yalnız Avropadan ibarət olması qənaətində idisə, ikinci tərəf dünya elmlərindən üz çevirib yalnız islam daxilində tərəqqinin mümkünlüyünə inanırdı, üçüncü tərəf isə islam və Avropa mədəniyyətinin sintezi yolu ilə dünya sivilizasiyasına qovuşmağın mümkünlüyünə inanırdılar. Ən doğru seçim üçüncü cəbhənin seçimi idi və sonrakı illərdə baş verən hadisələr bu seçimin düzgünlüyünü, perspektivliliyini təsdiqləmiş oldu. Üçüncü cəbhənin bir nümayəndəsi İsmayıl Qaspıralı yazırdı: "Yeni mədəniyyət haqqaniyyət üzərinə qurulan

---

[17] Abdullayeva T.M. XX əsrin əvvəlləri Azərbaycan ədəbi-bədii fikrində qərbçilik meyilləri. Fil. elm. nam. ... dis.avtoref. Bakı, 2007, s.10.

bir yaşayış tərzinin meyvəsi olacaqdır. Bu yeni mədəniyyəti meydana gətirməyə islamlardan ziyadə sərmayəyə malik bir millət görmüyoruz. Bu sərmayəmiz isə "Quran"dır ki, hökmünün özü haqqaniyyətdir"[18]. İ.Qaspıralıdan 20 il sonra, 1905-ci ildə Ə.Hüseynzadə də qəti şəkildə "bizim üçün islam xaricində nicat yoxdur" deyərək Avropa mədəniyyətinə, islama çağdaş münasibət barədə yazırdı: "Birincilər dini mübini-islamın ruhuna vaqif olmayaraq, öz zövq və həvəslərinə müvafiq bir halətdə qaldığını xahiş etdilər. İkincilər isə zənn edirlər ki, islamda mədəniyyətə, tərəqqi və təkamülə xidmət edəcək bir şey yoxdur. Avropa cəhətindən əsən bütün yellər, hətta zəhərli yellər belə şəfabəxşdir. Bunlar bütün bu maddiyunluğun, dəhriyyunluğun, iştirakuyunluğun məharətlərinə özləri belə bir təriqəti-fəlsəfiyyələri nəşrə çalışırlar.... Nə böyük yanlışlıq"[19].

Təbii ki, mühafizəkar islamçılar istər Türkiyədə, istərsə də Azərbaycanda qərbliləşməyi müsbət qarşılamırdılar. Onların mövqeyini ümumi şəkildə belə xülasə etmək olar: islam texnika baxımından qərbə möhtacdır, lakin inancı, əxlaqı, ruhu özünün olmaq şərtilə. Şərqi məğlub edən Qərb, yalnız texnologiya üstünlüyü olan Qərbdir. Eyni silahlarla ona qarşı mübarizə aparmalı, lakin mənəvi baxımdan böhran halında olan Qərbdən heç bir şey almamalıdır. İslamçıların əksəriyyəti bu baxışlarda birləşirdi. Lakin formallıq və qaydalar baxımından çox sərt və əyilməz olan islamçılar yeniləşmək üçün heç bir fəaliyyət göstərmirdilər. Bu səbəbdən bir çoxları türkçülüyə qarşı da çıxır, türkçülük kimi, bütün başqa milliyyətçi hərəkatları da islam birliyini pozacağı qorxusu ilə tənqid edirdilər.

İslamçılar qanunların tətbiqində sərt qayda-qanunu şiddətlə müdafiə edirdilər. Şəriətə uyğun olmayan qanunların aradan qaldırılmasını istəyirdilər. İslamçılar qərbliləşmə hərəkatının doğurduğu bir çox yeni iqtisadi, bədii və fikri hərəkatlara hücum edir, bu xüsusda fitvalar verirdilər.

Qərbçilərin bir qismi də "güvvətli və üstün olan hər şey qərbdədir" fikrindən doğan heyranlıq duyğusundan ilham alırdı. Bu mənada, mədəniyyətdə müasirləşmə problemi ilə bağlı yüz əlli ildən bəri davam edən bir yanlışlıq məhz təqlidçiliklə bağlı idi. Bunu o dövrün əksər ziyalıları da dilə gətirmişdir, günümüzdə mövzuya müraciət edən mütəxəssislər də. Çünki tarixən müsəlman cəmiyyətini "gəmirən" böyük səbəblərin başında gələn şey təqlidçilik idi. "Dini təqlid, dünyəvi təqlid,

---

18 Ekinçi Y. Qaspıralı İsmayıl. İstanbul, 1997, 234 s.

19 Əliyeva (Kəngərli) A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı: Elm, 2002, s.244-245.

adəti təqlid, qiyafəti təqlid, salamı təqlid, kəlamı təqlid, xülasə, hər şeyi təqlid olan bir millətin fərdləri də insan təqlidi deməkdir ki, qabil deyil, həqiqi heyəti ictimai vücuda gətirməz. Buna görə də yaşaya bilməz"[20].

Mədəniyyətin mənimsənilməsi məsələsində islamçılarla qərbçilərin qarşılıqlı ittihamları uzun müddət davam etmişdir. Türkçü ziyalılar içərisində isə Avropa mədəniyyətinə münasibətdə ən mükəmməl işlənmiş konsepsiya İ.Qaspıralının adı ilə bağlıdır. Onun bu barədə görüşləri Azərbaycan romantiklərinin, xüsusən Ə.Hüseynzadənin "türkləşmək, islamlaşmaq, müasirləşmək", başqa sözlə, "türk qanlı, islam imanlı, firəng qiyafəli olalım" şəklində ifadə etdiyi kulturoloji görüşlərinin əsasını təşkil etmiş və yaradıcılıqla inkişaf etdirilmişdir.

İlk növbədə nələrin mənimsənilməsi olduğuna dair fikrilər fərqli olduğu kimi, onların təbliğat üsulları da müxtəlif idi. Burada elmi, ədəbi-bədii formalardan tutmuş, satiraya və publisistikanın digər mümkün imkanlarına qədər istifadə edilirdi. Bu mənada, Ə.Hüseynzadənin rəhbərlik etdiyi füyuzatçıların təbliğatı bir cür, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ö.F.Nemanzadə kimi mollanəsrəddinçilərinki başqa cür, Ə.Ağaoğlu, Ü.Hacıbəyov, M.Ə.Rəsulzadə və digər ziyalılarınkı da ayrı cür idi. Amma məqsəd bir idi: xalqı cəhalət yuxusundan ayıltmaq və müasir mədəniyyət yoluna istiqamətləndirmək. Bu məqsədlə onlar tənqidlə yanaşı hətta istehza və kinayə üsulundan da istifadə edirdilər[21].

Bir əsrlik zaman məsafəsinə baxmayaraq bu gün müasirləşmək problemi ətrafında da bir-birinə zidd mühakimələr yürüdülməkdədir. Mədəni inteqrasiya prosesinə sağlam düşüncə ilə qoşulmanın və mənəviyyatımızı qloballaşmanın mənfi təzahürlərdən qorunmanın ən etibarlı yolu isə tarixi təcrübənin mənimsənilməsi və bu təcrübənin mədəniyyət quruculuğu prosesinə yaradıcı tətbiqidir.

Dissertasiyanın beşinci fəsli **"Mədəniyyət quruculuğu məsələləri milli istiqlal kontekstində"** adlanır. Bu fəsilin **"Mədəniyyət milli dövlətçiliyin təməl prinsipi kimi"** başlıqlı ilk yarımfəslində mədəniyyət fenomeni milli dövlətçiliyin əsas qaynağı kimi təqdim edilir. Milli dövlətçilik ideoloqlarının kulturoloji baxışları tədqiq edilir. Azərbaycan ziyalılarının kulturoloji fikirləri dünya tarixi-mədəni irsi kontekstində dəyərləndirilir.

---

[20] Topçubaşı A. Batı ve Şark meselesi. Ankara: Gökçe Ofset Matbaacılık, 1995, s.140-141.

[21] Nemanzadə Ö.F. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1992, s.34-41; Azərbaycan publisistikası antologiyası. Bakı: Şəqr-Qərb, 2007, s.24-30.

